# QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

## Qurtuluşa gedən yolun başlanğıcı



3

№ 160 (7328)

5 sentyabr 2025-ci il.
Qiymәti 60 qәpik

# Sosial islahatlar:
## hədəf vətəndaş məmnunluğudur!



2

Həyata keçirilən tədbirlər Prezident İlham Əliyevin sosial siyasətininbaşlıca hədəfinin əhalinin rifahının təminatı olduğunu bir daha təsdiq edir

# Bakıda yenidən Formula 1 həyəcanı başlayır!




4

"Antiterror tədbirləri nəticəsində Azərbaycanın suverenliyi tam bərpa edildi"



13

Yaşıl Azərbaycana keçməliyik: hansı problemlər var, nə etmək olar?



5

Şəhərin mərkəzində olan kirayə evlər tələbə büdcəsinə uyğundur?



11

## Ayaqqabının içində 614 qram qızıl keçirmək istədilər..



16

## İtirilmiş Azərbaycan toyu



6

# Sosial islahatlar: hədəf vətəndaş məmnunluğudur!

*Həyata keçirilən tədbirlər Prezident İlham Əliyevin sosial siyasətinin başlıca hədəfinin əhalinin rifahının təminatı olduğunu bir daha təsdiq edir*



***Azərbaycan Prezidenti İlham Əliyevin siyasətinin mərkəzində ölkə vətəndaşı, onun rifahının təminatı prinsipi dayanır və bunun nəticəsi olaraq ötən 22 ildə ölkəmiz güclü sosial siyasətə malik dövlət olaraq böyük inkişaf yolu keçib. Azərbaycan vətəndaşının maraqlarının, həyat səviyyəsinin keyfiyyətinin yüksədilməsi əsas hədəflərdən biri olaraq qarşıya qoyulmuşdur. Ölkəmizdə bütün sahələrdə olduğu kimi, sosial sahədə də sistemli və kompleks islahatların həyata keçirilməsi təmin edilib. Həyata keçirilən tədbirlər Prezident İlham Əliyevin sosial siyasətinin başlıca hədəfinin əhalinin rifahının təminatı olduğunu, bu siyasətin əsasında vətəndaş amili, sosial ədalət və humanizm prinsiplərinin dayandığını bir daha təsdiq edir. Həyata keçirilən müxtəlif tədbirlər, islahatlar və maliyyə təminatının gücləndirilməsi əhalinin sosial müdafiəsinin gücləndirilməsinə təkan verir.***

## ”AZƏRBAYCANDA SABİTLİYİN TƏMİNATÇISI AZƏRBAYCAN XALQIDIR”

Azərbaycan iqtisadiyyatında ardıcıl müşahidə olunan inkişaf meyilləri, ayrı-ayrı sahələrdə əldə edilən müsbət nəticələr dövlətin sosialyönümlü siyasətinin daha da gücləndirilməsinə imkan verir. Azərbaycan dövlətinin sosial sahədə atdığı addımlar vətəndaşına olan diqqət və qayğısının təzahürüdür. Son 22 ildə Azərbaycan Respublikasında əhalinin sosial müdafiəsi sahəsində qəbul edilmiş qanunlar, fərman və sərəncamlar, əhalinin sosial müdafiəsi sahəsində əsaslı islahatlar bu sahədə prinsipcə yeni vəzifələr yaratmışdır.

Bu gün ölkəmizdə iqtisadi sabitləşmənin nəticəsi olaraq, sosial sahədə ciddi dəyişikliklər baş verir. Təbii ki, uğurlu islahatların aparılması ölkəmizdə sabitliyin mövcudluğundan qaynaqlanır. Ölkəmiz dünyada belə sabitlik adası kimi tanınıb. Dövlət başçısı çıxışlarında vurğuladığı kimi, Azərbaycanda sabitliyin təminatçısı Azərbaycan xalqıdır: ”Azərbaycan xalqının iradəsi Azərbaycanda sabitliyin əsas təminatçısıdır. Xalq tərəfindən bizə göstərilən dəstək, bizim siyasətimizə verilən yüksək qiymət həm bizi daha da ruhlandırır və eyni zamanda, ölkəmizdə siyasi və iqtisadi sahələrdə sabitliyi təmin edir. Sabitlik pozulanda ölkələrdə böhran, xaotik proseslər baş verir, ölkələr böyük zərər görürlər”. Güclü xalq, güclü dövlət, güclü lider vəhdəti müasir müstəqil Azərbaycanın devizinə çevrilib. Bu gün Azərbaycanda güclü dövlət idarəçiliyi mövcuddur.

Prezident İlham Əliyev Ulu Öndərimizin gördüyü möhtəşəm işləri eyni qətiyyət və prinsipiallıqla davam etdirərək Azərbaycanın iqtisadi, siyasi, hərbi qüdrətini, nüfuzunu daim artırır, xalqın güzəranını və rifahını yüksəldir. Vətəndaş rifahının təminatı, sosial müdafiə sisteminin gücləndirilməsi Prezident İlham Əliyevin uğurlu siyasətinin əsas istiqamətlərindən biridir. Dövlətimizin başçısının Fərman və Sərəncamları ilə 2018-2025-ci illərdə 4 milyondan çox vətəndaşı əhatə edən 5 sosial islahat paketi icra olunub və bu islahatlar üzrə ayrılan illik əlavə vəsait 7,6 mlrd. manat təşkil edir.

Ölkə Prezidentinin 23 dekabr 2024-cü il tarixli Sərəncamı ilə 2025-ci ilin əvvəlindən icra olunan sosial islahat paketi çərçivəsində əməkhaqqı və pensiyalarda edilmiş artımlar görülən işlərin davamıdır. 23 dekabr 2024-cü il tarixində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin imzaladığı ”Əhalinin sosial rifahının yaxşılaşdırılması sahəsində tədbirlərin davam etdirilməsi haqqında” Sərəncamı dövlət başçısının siyasətinin mərkəzində vətəndaş rifahının təminatı prinsipinin dayandığını və bu məqsədlə aparılan sosial islahatların uğurla davam etdirildiyini bir daha göstərir. Sərəncama əsasən, 2025-ci il yanvarın 1-dən ölkəmizdə minimum aylıq əməkhaqqının məbləği 345 manatdan 16 faiz artımla 400 manata, 2025-ci il fevralın 1-dən əmək pensiyasının minimum məbləği 280 manatdan 14,3 faiz artımla 320 manata çatdırıldı. Bu artımlarla birgə artıq 2018-ci ilin əvvəlindən minimum aylıq əməkhaqqında 3,1 dəfə, minimum pensiyada 3 dəfəyədək artıma nail olunub. Həqiqətən də, bu sosial addımlar əhali tərəfindən böyük məmnunluqla qarşılanır. Bu gün Azərbaycan inkişaf və tərəqqi dövrünü yaşayır.

## UĞURLU SOSİAL İSLAHATLAR PAKETİ

”Sosial müavinətlərin, Azərbaycan Respublikası Prezidentinin təqaüdlərinin və fəxri adlara görə təqaüdlərin məbləğlərinin artırılması və bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında və Sərəncamında dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin məlum Fərmanı sosial sahədə görülən işlərin davamı kimi səciyyələnir. Fərmana əsasən, bu il iyulun 1-dən şəhid ailəsi, 20 Yanvar şəhidinin ailəsi, Əfqanıstanda həlak olan hərbçilərin ailələri üçün Prezidentin aylıq təqaüdü 600 manatdan 700 manata, müharibə, 20 Yanvar hadisələri, hərbi xidmət vəzifələrini yerinə yetirmək və Çernobıl AES-də hərbi xidmət ilə əlaqədar əlilliyi olan şəxslərə Prezidentin aylıq təqaüdü orqanizmin funksiyalarının 81-100 faiz pozulmasına görə (I dərəcə) 500 manatdan 600 manata, 61-80 faiz pozulmasına görə (II dərəcə) 400 manatdan 500 manata, 31-60 faiz pozulmasına görə (III dərəcə) 330 manatdan 400 manata çatdırıldı.

Vətən Müharibəsi Qəhrəmanlarına Prezidentin aylıq təqaüdünün 2000 manatdan 2200 manata, Azərbaycanın Milli Qəhrəmanlarına Prezidentin aylıq təqaüdünün 1800 manatdan 2000 manata, Prezidentin fərdi təqaüdünün 1500 manatdan 1700 manata, uşağın anadan olmasına görə və dəfn üçün birdəfəlik müavinətlərin 500 manatdan 600 manata çatdırılması təmin edilir. Himayədar ailəyə verilmiş əlilliyi olan uşağa görə aylıq müavinət 0-6 yaş arası uşaq üçün 395 manatdan 500 manata, 7-13 yaş arası uşaq üçün 415 manatdan 600 manata, 14-18 yaş arası uşaq üçün 435 manatdan 650 manata, əlilliyi olan şəxslərə müavinət, orqanizmin funksiyalarının 81-100 faiz pozulmasına görə (I dərəcə) 270 manatdan 300 manata, 61-80 faiz pozulmasına görə (II dərəcə) 220 manatdan 250 manata, 31-60 faiz pozulmasına görə (III dərəcə) 150 manatdan 180 manata çatdırıldı. Yeni Fərmanda həmçinin ümumi səbəblərdən orqanizmin funksiyalarının 81-100 faiz pozulmasına görə (I dərəcə) gözdən əlilliyi olan şəxslərə Prezidentin aylıq təqaüdünün 300 manatdan 350 manata, ümumi səbəblərdən orqanizmin funksiyalarının 81-100 faiz pozulmasına görə (I dərəcə) əlilliyi olan şəxslərə (gözdən əlilliyi olan şəxslər istisna olmaqla) Prezidentin aylıq təqaüdünün 200 manatdan 250 manata çatdırılmış oldu. Eyni zamanda övladlığa götürülən hər uşağa görə aylıq müavinət 200 manatdan 240 manata, ailə başçısını itirməyə görə aylıq müavinət (hər ailə üzvü üçün) 120 manatdan 140 manata, bir yaşınadək uşağı olan aztəminatlı (ünvanlı yardım alan) ailələrə aylıq müavinət (hər uşağa görə) 100 manatdan 140 manata, beşdən çox uşağı olan qadınlara aylıq müavinət (hər uşağa görə) 105 manatdan 140 manata, müddətli həqiqi hərbi xidmət qulluqçularının uşaqlarına aylıq müavinət (hər uşağa görə) 120 manatdan 140 manata, valideyn himayəsindən məhrum uşaqların qəyyumları üçün aylıq müavinət 120 manatdan 140 manata çatdırıldı.

Ümumilikdə, bu ilin əvvəlindən icrasına başlanılan sosial islahat paketi 3 milyon insanı əhatə edir və onlara yönələn əməkhaqqı, pensiya, müavinət və təqaüdlərin artırılması üçün illik əlavə olaraq 1,4 milyard manat ayrılıb.

Ölkəmizdə son 22 il ərzində bütün sahələri əhatə edən sistemli və kompleks islahatlar aparılıb, ölkə iqtisadiyyatının dayanıqlı və dinamik inkişafı təmin edilib. Həyata keçirilən tədbirlər Prezident İlham Əliyevin sosial siyasətinin başlıca hədəfinin əhalinin rifahının təminatı olduğunu, bu siyasətin əsasında vətəndaş amili, sosial ədalət və humanizm prinsiplərinin dayandığını bir daha təsdiq edir. Dövlət tərəfindən həyata keçirilən sosialyönlü tədbirlər nəticəsində, vətəndaşların maddi rifah halı yaxşılaşdırılıb, sosial müdafiə və təminat sistemi gücləndirilib, sosial tələbat və ehtiyacları yüksək səviyyədə ödənilib. Sosial sahə istiqamətindəki sərəncam və fərmanlar dövlət siyasətinin sosialyönümlülüyünü, xalqın sosial qayğılarının həllinin Prezident İlham Əliyevin həyata keçirdiyi siyasi xətdə prioritet təşkil etdiyini göstərir. Pensiyaçıların, təqaüdçülərin, əlillərin, şəhid ailələrinin və digər sosial kateqoriyaların sosial müdafiəsi ilə bağlı çoxlu sayda hüquqi aktların qüvvəyə minməsi bu sahədə ciddi dəyişikliyə səbəb olmuş oldu.

Göründüyü kimi, Prezident İlham Əliyevin sosial sahəyə xüsusi diqqət və qayğısı ölkədə sosial tərəqqi, sosial müdafiə sisteminin gücləndirilməsi istiqamətində ardıcıl olaraq mühüm addımların atılmasını təmin edib və bu uğurlar qarşıdakı dövrdə də davam edəcək.

***Zümrüd BAYRAMOVA***

# Qurtuluşa gedən yolun başlanğıcı

***Dünya şöhrətli siyasətçi və dövlət xadimi Heydər Əliyevin ölkəmizə rəhbərlik etdiyi dövr ərzindəki fəaliyyəti Azərbaycanın iqtisadi, sosial və mədəni tərəqqisinə, xalqımızın firavanlığı və xoşbəxtliyi, ölkəmizin dünya birliyində özünəməxsus layiqli yer tutması uğrunda mübarizəyə həsr edilmişdir. Ulu Öndər Heydər Əliyevin yüksək peşəkarlıqla işləyib hazırladığı milli dövlətçilik strategiyasının əsasında müstəqil Azərbaycanın iqtisadi qüdrətinin dirçəldilməsi, artırılması və möhkəmləndirilməsi dayanırdı.***

Azərbaycanda dövlət quruculuğu, iqtisadi dirçəliş, sosial-siyasi həyatda tərəqqi Ümummilli Lider Heydər Əliyevin adı ilə bağlıdır. Ulu Öndər Heydər Əliyev Azərbaycanı bir dövlət, xalqımızı isə bir millət kimi tarixin ağır və sərt sınaqlarından uğurla çıxarıb. Azərbaycan dövlətini dünya dövlətləri arasında irəli çıxaran, ölkəmizi parçalanmaq təhlükəsindən xilas edən, respublikamızın inkişafına möhkəm zəmin yaradan Ulu Öndər Heydər Əliyevin siyasi kursu nəticəsində, Azərbaycan özünün müstəqilliyinin sütunlarını möhkəmlətdi, onun dünyaya inteqrasiya olunmasına töhfələrini verdi.

Müstəsna xidmətləri ilə əbədilik qazanan Ümummilli Lider Heydər Əliyevin mənalı həyat yolu, zəngin və çoxşaxəli irsi tükənməz xəzinə, bir məktəbdir. Ötən illərə nəzər salarkən Azərbaycan xalqının öz müdrik liderinin rəhbərliyi ilə qazanmış olduğu mühüm tarixi nailiyyətlərin hər birinin uğurlu gələcəyimizə hesablandığını görərik. Bütün mənalı həyatını öz xalqına bəxş etmiş Dahi Şəxsiyyət Heydər Əliyevin siyasi və dövlət xadimi kimi zəngin fəaliyyəti Azərbaycan xalqının tarixində dərin iz buraxaraq, əsl dövlət idarəçiliyi məktəbinə çevrilib. Bütün həyatı boyu həmişə xalqının yanında olan Heydər Əliyev 1990-cı ildə törədilmiş 20 yanvar faciəsi zamanı Azərbaycan xalqına qarşı həyata keçirilən siyasətə etirazını bildirdi. Bu etiraz ona qarşı siyasi təqiblərin daha da şiddətlənməsinə səbəb oldu. Çətin və mürəkkəb dövrdə Azərbaycana qayıdıb xalqı ilə birlikdə olmaq istəyən Heydər Əliyev bütün çətinliklərə baxmayaraq, iradəsini ortaya qoydu və vətənə döndü. 1990-cı il iyulun 20-də Bakıya qayıdan Heydər Əliyev iki gün sonra Naxçıvana yola düşdü.

Ulu Öndər Heydər Əliyevin Sədrliyi ilə 1990-cı il noyabrın 17-də Naxçıvan Ali Məclisinin iclasında Muxtar Respublikanın adından "sovet sosialist" sözlərinin götürülməsi, Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli, aypara və səkkizguşəli ulduz nişanlı bayrağının dövlət bayrağı kimi qəbul edilməsi və bu barədə Azərbaycan Parlamenti qarşısında qanunvericilik təşəbbüsü qaydasında məsələ qaldırılması haqqında tarixi qərarlar qəbul edildi. Naxçıvanda həyata keçirilən demokratik tədbirlər bütün Azərbaycana nümunə oldu. 1991-ci il fevralın 5-də Azərbaycan SSR Ali Sovetinin sessiyası demokratik qüvvələrin tələbi ilə bir sıra tarixi qərarlar qəbul edildi. Dövlətin adı dəyişdirilərək "Azərbaycan Respublikası" adlandırıldı, Azərbaycan Xalq Cümhuriyyətinin bayrağı dövlət bayrağı kimi təsdiq olundu. 1991-ci il avqustun 26-dan Naxçıvan Muxtar Respublikası ərazisində Azərbaycan KP-nin fəaliyyəti dayandırıldı və onun bütün strukturları ləğv edildi.

1991-ci il sentyabrın 3-də Heydər Əliyev Naxçıvan Muxtar Respublikası Ali Sovetinin sədri seçildi. Muxtar respublikanın düşmən hücumundan və sosial-iqtisadi böhrandan xilası istiqamətində mühüm qərarlar qəbul edən dahi rəhbər digər tərəfdən Azərbaycanı müstəqil, xalqımızı firavan görmək istəyirdi. Görkəmli dövlət xadimi xalqının ən ağır günlərində onun yanında olmaq üçün 1990-cı il iyul ayında Naxçıvana gəldi. Həmin vaxt Muxtar Respublika son dərəcə ağır şəraitdə yaşayırdı. Bir tərəfdən iqtisadiyyat iflic olmuş, əhalinin maddi durumu dözülməz həddə çatmışdı. Digər tərəfdən, ermənilərin hücumları və Naxçıvanın blokada vəziyyətində yaşaması ictimai-siyasi gərginliyi daha da mürəkkəbləşdirmişdi. Belə bir vaxtda Ulu Öndərin Naxçıvana gəlməsi xalqın əsl nicatına çevrildi, xalq Onun timsalında böyük xilaskarını tapdı. Əlbəttə ki, təkcə Naxçıvan yox, bütövlükdə, Azərbaycan. Naxçıvanda siyasi fəaliyyət göstərdiyi müddətdə həm də Azərbaycanın müstəqil, demokratik, dünyəvi dövlət kimi güclənməsi, inkişaf etməsi üçün mühüm siyasi və ideoloji amilə çevrilən qərarlar qəbul etdi. Ümummilli Liderin Naxçıvandakı fəaliyyəti müstəqilliyə gedən yolun başlanğıcı kimi dəyərləndirilir.



## SAĞLAM İDEOLOGİYAYA ƏSASLANAN BİRLİK

Ümummilli Liderimiz Heydər Əliyevin Ali Məclisin Sədri olarkən dünya azərbaycanlılarını bir ideya ətrafında - Vətənə və xalqa xidmət uğrunda birləşməyə səsləməsi də bu istəkdən, bu arzudan irəli gəlirdi. Çünki xalq arasında sağlam ideologiyaya əsaslanan birlik olmadan ölkəni düşdüyü bəlalardan qurtarmaq və inkişaf yoluna çıxarmaq mümkün deyildi. 1991-ci il dekabrın 16-da Ali Məclis tərəfindən "31 Dekabr Dünya Azərbaycan Türklərinin Həmrəylik və Birlik Günü haqqında" Qərarın qəbul edilməsi, bu mənada, xüsusi əhəmiyyətə malikdir.

Ulu Öndər həmin dövrdə xarici iqtisadi əlaqələrin qurulması sahəsində də mühüm addımlar atıb, 1992-ci ildə qonşu Türkiyə Cümhuriyyətinə və İran İslam Respublikasına səfərlər edib, keçirilən görüşlərdə iqtisadi sahədə əməkdaşlığa dair protokollar imzalayıb. Nəticədə hər iki dövlətlə iqtisadi, mədəni, təhsil və digər sahələrdə qarşılıqlı münasibətlər qurulub. Muxtar Respublikanın dağılmış iqtisadiyyatının, xüsusilə də kənd təsərrüfatının dirçəldilməsi istiqamətində tədbirlərin həyata keçirilməsi dövlət xadiminin diqqət mərkəzində olub. Ali Məclisin 1992-ci il aprelin 6-da keçirilən sessiyasında "Naxçıvan Muxtar Respublikasında zərərlə işləyən kolxoz və sovxozlar haqqında" və "Rentabelli işləyən kolxoz və sovxozların ictimai mal-qarasının özəlləşdirilməsi barədə təkliflər haqqında" qərarlar qəbul edilib, bu islahatlar aqrar bölmədə irəliləyişlərə səbəb olub.

## MÜSTƏQİL AZƏRBAYCANIN ƏN QÜDRƏTLİ PARTİYASI

Müstəqil Azərbaycanın Qurucusu Heydər Əliyev ən yeni tariximizin çətin anlarından şərəflə çıxaraq, müstəqilliyimizin gerçəkləşməsində və ictimai-siyasi həyatımızın bütün istiqamətləri üzrə inkişafın təmin edilməsində aparant rolunu oynadı. Ölkəmizin ictimai-siyasi həyatı, gələcəyi üçün daha mühüm bir hadisə 1992-ci il noyabrın 21-də yenə də Naxçıvanda baş verib: müstəqil Azərbaycanın ən qüdrətli partiyası olan Yeni Azərbaycan Partiyası yaradılıb. Azərbaycanın gələcəyinin təhlükə qarşısında qaldığı, dövlətimizin taleyinin həll olunduğu bir dövrdə yaranan Yeni Azərbaycan Partiyası milli dövlətçiliyimizin inkişafı üçün son dərəcə əhəmiyyətli olan yeni tarixi mərhələnin əsasını qoyub. Güclü sosial bazası, gerçəkliyə əsaslanan proqramı, ən önəmlisi isə Ulu Öndər Heydər Əliyev kimi lideri olan Yeni Azərbaycan Partiyasının siyasi səhnəyə çıxması iyirminci əsr Azərbaycan tarixinin mühüm hadisəsi idi.

Qeyd edək ki, Yeni Azərbaycan Partiyasının yaradılması Azərbaycan dövlətçiliyinin formalaşması prosesinə təsirini göstərdi. YAP yaranandan, Azərbaycanın siyasi həyatında özünəməxsus rola malik olan təşkilat kimi qəbul edildi. Bunun da əsas səbəbi o idi ki, partiyanın rəhbərliyində Ulu Öndər Heydər Əliyev kimi Azərbaycan xalqının böyük hörmət və inam bəslədiyi Dahi Şəxsiyyət dayanırdı. YAP Azərbaycan dövlətinin müstəqilliyinin qorunub-saxlanılmasında və dövlətçiliyimizin inkişaf etdirilməsində müstəsna xidmətləri olan siyasi təşkilata çevrildi.

## ÜMUMBƏŞƏRİ DƏYƏRLƏR ƏSASINDA QURULAN DEMOKRATİK BİR CƏMİYYƏT

"Biz Azərbaycanda demokratik respublika, vətəndaş cəmiyyəti quraraq, sivilizasiyalararası cəmiyyət uğrunda mübarizə apararaq, ümumi dünyəvi, bəşəri dəyərlərin hamısından istifadə etməliyik. Biz çalışmalıyıq ki, Azərbaycan uzun illərdən sonra, ilk dəfə müstəqilliyini aldıqdan sonra bütün dünyaya öz tarixi nailiyyətlərini, milli ənənələrini nümayiş etdirə bilsin. Güman edirəm ki, Azərbaycan xalqının bu barədə həm tarixi, həm müasir potensialı olduqca böyükdür. Bunların hamısından istifadə olunarsa, Azərbaycan həm tam müstəqil dövlət olacaq, həm də bizim cəmiyyətimiz tam demokratik, hüquqi, ümumbəşəri dəyərlər əsasında qurulan demokratik bir cəmiyyət olacaqdır", - deyə Azərbaycanın Ulu Öndəri bildirmişdir.

Heydər Əliyevin 1993-cü ildə Azərbaycan rəhbərliyinə qayıdışı ilə ölkənin ictimai-siyasi, sosial, iqtisadi, elmi-mədəni həyatında, beynəlxalq əlaqələrində əsaslı dönüş yarandı. Elmi əsaslarla beynəlxalq norma və prinsiplərə uyğun müstəqil dövlət quruculuğu prosesi başlandı. Milli Ordu formalaşdı, torpaqlarımızın müdafiə olunması ilə bağlı mühüm addımlar atıldı. Atəşkəsə nail olmaq üçün bütün siyasi və diplomatik vasitələr işə salındı və bunun nəticəsində 1994-cü ilin mayında atəşkəsə nail olundu. Azərbaycan dövlətini dünya dövlətləri arasında irəli çıxaran, ölkəmizi parçalanmaq təhlükəsindən xilas edən, respublikamızın inkişafına möhkəm zəmin yaradan Ulu Öndər Heydər Əliyev Azərbaycanın müstəqilliyinin sütunlarını möhkəmlətdi, onun dünyaya inteqrasiya olunmasına töhfələrini verdi. şöhrətli siyasətçi və dövlət xadimi Ulu Öndər Heydər Əliyevin ölkəmizə rəhbərlik etdiyi dövr ərzindəki fəaliyyəti Azərbaycanın iqtisadi, sosial və mədəni tərəqqisinə, xalqımızın firavanlığı və xoşbəxtliyi, ölkəmizin dünya birliyində özünəməxsus layiqli yer tutması uğrunda mübarizəyə həsr edilmişdir. Ulu Öndər Heydər Əliyevin yüksək peşəkarlıqla işləyib hazırladığı milli dövlətçilik strategiyasının əsasında müstəqil Azərbaycanın iqtisadi qüdrətinin dirçəldilməsi, artırılması və möhkəmləndirilməsi dayanırdı. Məhz Ümummilli Liderin zəngin siyasi təcrübəsi və yüksək idarəçilik bacarığı vətənə olan tükənməz sevgisi Azərbaycanın dövlət müstəqilliyini təhlükədən qurtardı. "Əgər respublikada ictimai-siyasi sabitlik olmasa, sağlam ictimai-siyasi mühit olmasa, heç bir sosial-iqtisadi proqramdan, yaxud problemlərin həll edilməsindən söhbət gedə bilməz",- deyirdi Heydər Əliyev.

Dahi Öndər Heydər Əliyevin müəllifi olduğu 1994-cü ilin 20 sentyabrında nəhəng neft müqaviləsi - "Əsrin müqaviləsi" imzalandı. Ölkənin sənaye ölkəsinə çevrilməsində, hərbi potensialının güclənməsində, kadr potensialının hazırlanmasında və s. proseslərdə uğurlar müşayiət olundu və bütün sahələrdə dönüş yarandı. Böyük Şəxsiyyət Heydər Əliyevin siyasi kursu nəticəsində, Azərbaycanın dünyaya inteqrasiya olunmasına töhfələrini verdi. 1995-ci ildə müstəqil Azərbaycanın ilk parlamentinə keçirilən seçkilər isə, dövlət müstəqilliyinin möhkəmləndirilməsi prosesinin hüquqi bazasının yaradılmasında daha geniş imkanlar yaratdı.

Bu gün ölkəmizdə Ümummilli Liderin əsasını qoyduğu siyasətin Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi nəticəsində, Azərbaycan uğurla inkişaf edir. Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən davamlı islahatlar sayəsində Azərbaycan özünün iqtisadi müstəqilliyinin təmin olunması yolunda inamlı addımlar atıb. Hər bir ölkənin inkişafında əsas rol oynayan sabitliyin möhkəmlənməsi əsasında Azərbaycanda iqtisadi imkanların genişlənməsi üçün biri-birindən əhəmiyyətli layihələrin icrası sürətləndirilir. Mükəmməl texnologiyamız, döyüş ruhumuzun yüksəkliyi, xalq-iqtidar birliyi, həmrəylik Azərbaycanın Zəfər tarixini yazdı. Prezident İlham Əliyevin rəhbərliyi ilə işğaldan azad olunmuş ərazilərimizdə sürətli yenidənqurma və bərpa işləri həyata keçirilməkdədir. 30 ilə yaxın dövr ərzində xarabazara çevrilmiş torpaqlarımız bu gün yenidən qurulur və böyük canlanma müşahidə olunmaqdadır. Bu ərazilərdə ermənilər tərəfindən aparılan şumlama əməliyyatı neçə əsrlik tarixi olan ölkənin yeraltı və yerüstü sərvətlərinə qarşı yeridilən siyasi taktikadır. Bütün bunlara baxmayaraq, Azərbaycan dağıdılmış, talan edilmiş məkanları bərpa edərək, infrastruktur layihələri reallaşdırılır.

Bu gün Azərbaycan regionun, Avropanın və ümumilikdə, dünya ölkələrinin enerji təhlükəsizliyinin təmin edilməsində xüsusi əhəmiyyət kəsb edən bir ölkəyə çevrilmişdir. Beynəlxalq təşkilatlar regiondakı bütün layihələrdə Azərbaycanın mövqeyini nəzərə alırlar. Ötən dövrdə uğurlu inkişaf tarixini yaşayan Azərbaycanda həyata keçirilən kompleks islahatlar, geniş quruculuq işləri və yaradılan güclü iqtisadiyyat Azərbaycanın əsas inkişaf göstəriciləridir.

Müstəqil Azərbaycanın bütün sahələrdə qazandığı möhtəşəm nailiyyətlər Ulu Öndər Heydər Əliyev ideyalarının təntənəsi və milli tariximizin şanlı səhifələridir.

***Zümrüd BAYRAMOVA***

# Bakıda yenidən Formula 1 həyəcanı başlayır!

***Paytaxt Bakımız sentyabrın 19-dan 21-dək növbəti dəfə Formula 1 yarışlarına ev sahibliyi edəcək. Həmişə olduğu kimi, mötəbər yarış bu dəfə də öz azarkeşlərinə böyük sevinc hissini yaşadacaqdır. Hər il olduğu kimi, bu il də yarışların yüksək səviyyədə təşkili üçün lazımı işlər görülüb. Bu o deməkdir ki, Azərbaycan beynəlxalq tədbirlərin təşkilində yüksək təşkilatçılıq bacarığına malik olan ölkədir. Heç şübhəsiz ki, beynəlxalq idman yarışlarına ev sahibliyi edən Azərbaycan növbəti dəfə öz təcrübəsindən yararlanaraq, Formula 1 yarışlarını da uğurla başa vuracaq.***




Bakı şəhər halqasında dünyanın ən məşhur pilotları yarışacaqlar. İçərişəhəri, paytaxtın müasir memarlıq abidələrini və Xəzərin sahilboyu hissəsini özündə birləşdirən ecazkar mənzərəni görmüş olacaqlar. 1950-ci ildən etibarən hər il keçirilən Formula 1-in möhtəşəmliyi üçün paytaxtımızda istənilən şərait yaradılıb. Plotlar əfsanəvi tarixi yerləri əhatə edən və heç bir yerdə bənzəri olmayan trekdə yenidən yarışacaqlar. Məlumdur ki, dünya ölkələrində keçirilən Formula 1 yarışları çərçivəsində Bakıda keçirilən ən yaxşı yarış hesab edilir. Bir daha dünya görəcək ki, sülh, tərəfdaşlıq və mədəni müxtəliflik məsələlərinə töhfələrini verən Azərbaycan qitə və dünya miqyaslı tədbirlərə uğurla ev sahibliyi edir. Yenidən dünyanın idman nəbzinin Bakıda - Şərq ilə Qərbin koloritinin cəmləşdiyi şəhərdə döyünür.

## YARIM MİLYARDA YAXIN TAMAŞAÇI AUDİTORİYASI

Son illərdə Birinci Avropa Oyunlarına, IV İslam Həmrəyliyi Oyunlarına, 42-ci Ümumdünya Şahmat Olimpiadasına və onlarla belə irimiqyası beynəlxalq tədbirlərə ev sahibliyi edən Azərbaycan 2016-cı ildən başlayaraq Formula-1 yarışlarına da uğurla ev sahibliyi edir. Təbii ki, bütün bu və ya digər idman yarışlarının ölkəmizdə təşkili Azərbaycanın idman siyasətinin uğuru, beynəlxalq federasiyaların ölkəmizdə aparılan işlərə, həmçinin, idman və bədən tərbiyəsi sahəsində nailiyyətlərimizə verilən qiymətin göstəricisidir. Belə yarışların keçirilməsi, onu göstərir ki, Azərbaycan dünyanın qabaqcıl idman ölkələri sırasında öz layiqli yerini tutub. Bildiyimiz kimi, Formula 1 yarışları yarım milyarda yaxın tamaşaçı auditoriyasına görə dünyada futboldan sonra ikinci yeri tutur. Bu sayda tamaşaçı auditoriyasına malik yarış Azərbaycanın dünyada daha da tanıdılmasında müstəsna rola malikdir.




Təbii ki, keçirilən bu və ya digər tədbirlər turistlərin ölkəmizə axınını daha da gücləndirib. Bakıda keçirilən Formula 1 Avropa Qran-Prisi yarışlarını dünyanın 200-yə yaxın ölkəsində 500 milyondan çox azarkeşin televiziya vasitəsilə izləməsi, təbii ki, ölkəmiz ətrafında olan münasibətləri formalaşdırır. Azərbaycan Prezidenti İlham Əliyev çıxışlarının birində Formula 1 yarışın ölkəmiz üçün çox böyük faydası olduğunu bildirib: "Birincisi, Formula 1 yarışını keçirən şəhərlər inkişaf etmiş ölkələrin ya paytaxt şəhərləri, ya da ki, böyük şəhərləridir. Onların arasında Bakı şəhərinin mövcudluğu bizim üçün böyük hadisədir. İkincisi, Formula 1 yarışı ölkəmizə böyük iqtisadi dividendlər gətirir, necə ki, bütün başqa şəhərlərə". Əlbəttə ki, Formula 1 üzrə dünya çempionatının tamaşaçı auditoriyası bütün qitələri əhatə edir. Amerika, Avropa, Avstraliya, Asiya və Afrika ölkələrinin televiziya kanallarında yarışlar müntəzəm yayımlanır. Beş yüz milyon televiziya tamaşaçısının Avropa Qran-Prisində ən güclü pilotlarının mübarizəsini izləməklə yanaşı, şəhərimizin gözəlliyi ilə tanış olur, müasirliklə qədimliyin simvollarını özündə birləşdirən Bakı haqqında geniş məlumat əldə edə bildilər. ABŞ-ın, Böyük Britaniyanın, Kanadanın, Fransanın, İspaniyanın, Avstraliyanın, Braziliyanın, Portuqaliyanın, Almaniyanın, İtaliyanın, Cənubi Afrika Respublikasının, Rusiyanın, Yaponiyanın və Polşanın, Hindistanın məşhur televiziya kanalları Bakı Qran-Prisini yayımlamaqla yanaşı, paytaxtımıza həsr olunan reportaj və materiallar hazırlayırlar. Azərbaycanın beynəlxalq nüfuzlu yarışlara yüksək səviyyədə ev sahibliyi etməsi, qədim tarixi abidələrimiz diqqətdən kənarda qalmır.

## SAĞLAM NƏSİL VƏ BÖYÜK İDMANÇI ORDUSU

Ölkəmizdə mötəbər idman yarışlarını keçirməsinin arxasında da, məhz Azərbaycanın inkişafı, müasir infrastrukturu və təhlükəsiz ölkə olması amili dayanır. Ölkəmizdə müasir tələblərə cavab verən möhtəşəm idman qurğuları fəaliyyət göstərir. 2015-ci ildə istifadəyə verilən Bakı Olimpiya Stadionu 68 min tamaşaçı tutumuna malikdir. Bu nəhəng idman qurğusu müasir memarlıq üslubu, xüsusi gözəlliyi və funksional baxımdan, əlverişliliyi ilə seçilir. Beynəlxalq standartlara tam cavab verən stadionda müxtəlif funksiyalı tribunalar, qaçış zolağı və digər infrastruktur yaradılıb. Əsas və köməkçi stadionlardan, həmçinin, mexaniki binadan ibarət olan stadionda əlil tamaşaçılar, VVIP, VIP, CIP və media bölmələri mövcuddur. Bakı Tennis Akademiyası da Azərbaycanda bu tipdə inşa edilmiş ilk idman qurğusudur. İlin bütün fəsillərində yerli və beynəlxalq yarış və məşqlərin keçirilməsi üçün müasir tələblərə cavab verən istilik və havalandırma sistemi quraşdırılıb.

Bundan başqa 3 min tamaşaçı tutan mərkəzi universal stadion inşa olunub. Stadionda tennislə yanaşı, voleybol, mini-futbol, basketbol, həndbol, çimərlik voleybolu, güləş, boks və idmanın digər növləri üzrə ən mötəbər çempionatlar və turnirlər keçirmək mümkündür. Bu və ya digər idman qurğularının paytaxtımızda mövcudluğu yarışların möhtəşəm keçirilməsinə əsas verir. İdman qurğuları ilə yanaşı, ölkəmizin idman sahəsində qazandıqları nəticələr də, çox vacib amillər sırasındadır. Sevindirici haldır ki, idmançılarımız həmişə onlara göstərilən etimadı doğruldublar. Bu kimi tarixi nailiyyətlər gənclərimizin idmana maraq və həvəsini daha da artırdı. Azərbaycana 56 medal qazandıran Birinci Avropa Oyunları, bir daha təsdiqlədi ki, ölkəmizdə perspektivli, güclü idmançılar nəsli yetişməkdədir.

Azərbaycanda idman və Olimpiya hərəkatının inkişafında da böyük canlanma var. Gələcəyə hesablanmış idman siyasəti ölkəmizdə sağlam nəsil və böyük idmançı ordusu formalaşdırıb. Bütün bunlar Azərbaycanda həyata keçirilən idman siyasəti, həmçinin, idmanın inkişafına dövlət tərəfindən göstərilən diqqət və qayğının məntiqi nəticəsidir.

***Nəzakət ƏLƏDDİNQIZI***

# Yaşıl Azərbaycana keçməliyik: hansı problemlər var, nə etmək olar?

## Son 30 ildə ölkə meşələrinin sahəsi kəskin azalıb, paytaxtda isə əhalinin sayı 2 dəfə artsa da, yaşıllıq sahəsi 2 dəfə azalıb

***Əkinçilik və maldarlıq formalaşmamışdan əvvəl dünyanın quru ərazisində meşələrin payı 56 faiz təşkil edirdi. Hazırda bu göstərici 30 faizdən aşağı düşüb, yəni 2 dəfəyə yaxın azalıb. Hazırda dünya üzrə meşə örtüyünün sahəsi 4 milyard hektardır. Bunun 809 milyon hektarı Rusiyanın, 478 milyon hektarı Braziliyanın, 310 milyon hektarı Kanadanın və 303 milyon hektarı ABŞ-ın payına düşür. Son 200 ildə dünya üzrə meşə ərazilərinin sahəsi 2 dəfədən çox azalıb. Son illərdə dünyanın ən böyük meşə sahələrdə (Amazon, Sibir, Avstraliya, Kaiforniya və s.) baş verən yanğınlarda çox nəhəng meşəliklər məhv oldu. Həmçinin, Yunanıstan, Türkiyə, Meksika kimi ölkələrdə böyük meşə sahələri yandı. Getdikcə planetimizdə yaşıllıq sahələrinin payı azalır ki, bu da çox ciddi ekoloji böhranlara gətirib çıxara bilər.***

XVIII-XIX əsrlərdə indiki Azərbaycan ərazisinin 35%-i meşə ilə örtülü olub. Hazırda bu göstərici 11 faiz təşkil edir ki, bu da dünyada aşağı göstəricilərdən sayılır. Bu rəqəm Rusiyada 44%, Latviyada 41%, Gürcüstanda 39% təşkil edir.

Son 30 ildə ölkəmizin meşə təsərrüfatı xeyli itki verib. Belə ki, 90-cı illərin əvvəllərindən başlayaraq uzun müddət regionlarda təbii qazla təminat olmadığından meşələrin, yaşıllıqların qırılması baş verirdi. Bundan başqa, Ermənistan tərəfindən işğal olunan Qarabağ zonasında meşələrin çoxu qırılıb satılırdı.

Qeyd etmək lazımdır ki, son 30 il ərzində əhali və ağac emalı müəssisələri tərəfindən meşə ehtiyatlarına təzyiqin artması müşahidə olunur. Respublikanın mərkəzində sipər rolunu oynayan Kürqırağı Tuqay meşələrinin 80 %-i məhv olub; dağ və dağətəyi meşələr sistemsiz qırılıb sıradan çıxır. Təbii bərpa edilmə imkanları ciddi surətdə məhdudlaşır (qanunsuz olaraq mal-qara otarılması, normadan artıq antropogen təsir) və nəticədə Azərbaycanın əvəzedilməz yaşıl örtüyünün gələcəyi itirilmə təhlükəsi qarşısında qalır.

Bir neçə il əvvəl Ekoloq Jurnalistlər Birliyi Beynəlxalq Vəhşi Təbiəti Mühafizə Fondunun dəstəyi ilə bir layihə keçirirdi. Bu sətrilərin müəllifi də həmin layihədə iştirak edirdi. Meşələrdə, qoruqlarda monitorinq apardıq, bəzi problemləri qeydə aldıq. Məsələn, meşələrdə araba və maşınlarla odun daşıyanlara rast gəldik, onların çoxu qurumuş deyil, sağlam ağaclar idi. Bəziləri hansısa arayış göstərərək bunu məktəblər və bağçalar üçün apardıqlarını bəhanə edirdilər, halbuki çoxu satış məqsədilə kəsilir.

Azərbaycan onsuz da ərazisinə görə meşə sahəsinin ən az olduğu ölkələrdəndir. Bunun qarşısı alınmasa, tezliklə olan-qalan meşələr də yoxa çıxacaq.

Qeyd etməliyik ki, son 10-15 ildə həm Ekologiya və Təbii Sərvətlər Nazirliyi, həm də Heydər Əliyev Fondu tərəfindən kütləvi aşac əkmə kampaniyaları həyata keçirilib, müxtəlif ərazilərdə milyonlarla yeni tinglər əkilib. Lakin bu işi davam etdirməyə ehtiyac var. Həm də təkcə dövlət səviyyəsində yox, fərdi və ictimai səviyyədə belə işlər görülməlidir.

Şəhər mühitinin rahatlığının yüksəldilməsində və çirklənməsi səviyyəsinin aşağı salınmasında yaşıllığın böyük rolu var. Belə ki, şəhərdə (və ya hər hansı yaşayış məntəqəsində) yaşıllıqların salınması, ağacların əkilməsi, bağların, parkların yaradılması həm havanın təmizlənməsinə, həm ərazinin abadlaşdırılmasına, həm də insanların istirahəti üçün gözəl məkanların çoxalmasına müsbət təsir göstərir.

Çox təəssüflər olsun ki, son vaxtlar bu yaşıllıqların, xüsusilə də, ağacların kəsilməsi, məhv edilməsi faktları ilə tez-tez qarşılaşırıq. Bu sahədə mövcud olan problemlərin həlli, insanların ekoloji maarifləndirilməsi çox vacibdir.

Son 10-15 ildə ölkənizin inkişafı göz qabağındadır. Şəhərlərimiz abadlaşır və müasirləşir. Gözəl park və xiyabanlar, geniş prospektlər, möhtəşəm və modern binalar salınır. Amma eyni zamanda, iri şəhərlərdə əhalinin sıxlığı, çoxlu sayda avtomobillərin havaya buraxdığı zərərli maddələr, yaşıllıqların bəzi yerlərdə məhv edilməsi, ağacların vaxtında suvarılmaması, habelə bilərəkdən kəsilməsi və məhv edilməsi faktlarını da görməmək mümkün deyil.



Əlbəttə, son illərdə Bakıda xeyli abadlıq işləri görülüb, yaşıllıqlar, parklar salınıb. Lakin hələ də yaşıllıq səviyyəsi arzulanan həddə deyil. Sovet dövründə- 80-ci illərdə Bakıda yaşıllığın ümumi həcmi 15-16 min hektar təşkil edib, hazırda isə təxmini hesablamalara görə bu rəqəm 7-8 min hektar təşkil edir. Bu müddətdə paytaxtda əhalinin sayı 2 dəfə artıb, yaşıllıq sahəsi 2 dəfə azalıb, demək problem 4 dəfə kəskinləşib.

Əraizisi 214 min hektar olan Bakıda yaşıllıq sahəsi 1000 hektara yəni, 0,5 faizə belə çatmır, dünya şəhərləri ilə müqayisə etsək, bu göstərici Moskvada 49 faiz, İstanbulda 2.2%, Tokioda 7,5%, Parisdə 9.5%, Berlində 14,4%, Nyu-Yorkda 27%, Londonda 33%, Vyanada 45%, Osloda 68% təşkil edir. Göründüyü kimi, Bakı səhra şəhəri vəziyyətindədir.

Buna görə də, paytaxtda və ətrafında böyük yaşıllıq kampaniyaları keçirilməlidir, bütün mümkün yerlərdə ağaclar əkilməlidir. Ekologiya və Təbii Sərvətlər Nazirliyi və Heydər Əliyev Fondundan başqa bu işi görən yoxdur. Bu işə ictimai təşkilatlar da maraq göstərməlidirlər. Ekoloji qeyri-hökumət təşkilatları fondlardan aldıqları qrantların müqabilində faydasız salon tədbirləri keçirməkdənsə, praktiki faydalı işlə məşğul olmalı, ağacəkmə kampaniyaları təşkil etməlidir. Ekologiya və Təbii Sərvətlər Nazirliyi belə təşəbbüsləri dəstəkləyir və belə müraciətlər olduqda tinglərlə təmin etməyə söz verib. Lakin bildiyimə görə, müraciətlər çox azdır.

Bakıda əsas ekoloji böhran yaşıllıqların və ağacların məhv olması ilə bağlıdır. Burada əsas problemlərdən biri də odur ki, keçmiş Azərsu Bakıda bina həyətlərində, məhəllələrdə olan su kranlarının çoxunu ləğv edib. Nəticədə artıq minlərlə ağac quruyub, məhv olub. Bunun qarşısı alınmasa, yaxın müddətdə paytaxtımızın ağacsız səhra şəhərinə çevriləcəyinə şübhə yoxdur.

Mövcud ağacların saxlanması sahəsində vəziyyət daha çətindir. Bəzilərini külək aşırır, bəziləri də müxtəlif səbəblərdən quruyur. Ağac əkməklə iş bitmir, bundan sonra onlara qulluq edilməyəndə, vaxtında suvarılmayanda çoxu əmələ gəlmir, çünki Bakıda torpağın keyfyyəti də zəifdir, çox az növdə ağac bu torpaqda, bu iqlimdə yetişə bilir. Ona görə də, hansı tinglərin əkilməsinə xüsusi diqqət verilməlidir, daha çox oksigen verən həmişəyaşıl, dözümlü ağaclar əkilməlidir.

Yeni binaların, yaşayış komplekslərinin, evlərin, obyektlərin tikintisi zamanı onların tutduğu sahəyə müvafiq olaraq yaşıllıq sahəsi şərt kimi qoyulmalıdır. Sakinlər isə binaların həyətlərində boş yerlərdə ağac əkilməsinə təşəbbüs göstərməlidirlər. Yəni, bu işdə həm dövlət, həm cəmiyyət fəal olmalıdır.

Bir çox hallarda aparılan tikinti işləri zamanı yaşıllıqlar məhv edilir. Gecəylə ağcları kəsib aparırlar. Kəsmək mümkün olmadıqda isə, dibinə turşu və ya digər kimyəvi maddələr tökərək qurudurlar. Artıq hamı bilir ki, bir ərazi hasara alınıbsa, orada mütləq bütün ağacları gecə ikən kəsəcəklər. Bəzi hallarda bu faktlar mediaya, sosial şəbəkələrə çıxanda problemin qarşısı alınır, cərimələr edilir. Lakin heç də bütün hallarda məsələ ictimailəşdirilmir. Çünki vətəndaşlarımızın bir çoxunda ictimai məsuliyyət yoxdur. Düşünürlər ki, "mənə nə, kim kəsir kəssin".

Bunun qarşısının alınması üçün çox ciddi cərimələr və adekvat cəzalar tətbiq olunmalıdır. 3-5 min manat cərimə ilə pobləm həll olunmaz. O ərazidə obyekt tikən şəxs ordan ildə 100 min qazanc götürəcəksə, onun üçün bu 3-5 min manatı ödəmək problem deyil. Yaxşı olardı ki, cərimələr 10 dəfə artırılsın, kütləvi ağackəsmə zamanı isə əmlakı müsadirə olunmaqla həbs cəzası verilsin. Əgər ETSN gec xəbər tutubsa və ağaclar artıq kəsilibsə, şirkəti cərimə edib, orada bina tikməsinə qadağa qoyumalıdır. Cərimədən sonra həmin ərazidə bu şirkətin yaşıllıq salması və 5 il müddətinə ona qulluq etməli olduğu haqda qərar çıxarılmalıdır. Bu başqalarına da dərs olar. Yalnız bu yolla bu "yaşıl terror"un qarşısını almaq mümkün olar. Sakinlər isə ayıq və məsuliyyətli olmalı, belə faktlara rast gələn kimi, dərhal sosial şəbəkələrdə, mətbuatda yaymalıdırlar. Yalnız bu yolla "yaşıl soyqırım"ın qarşısını almaq olar.

Paytaxtımızda və onun ətrafında boz, çılpaq ərazilər çoxdur. Məsələn paytaxtımızın cənub girişi olan Yeni Salyan şossesinin ətrafı (Bibiheybət məscidindən Su İdmanı sarayınadək olan hissə) bərbad haldadır. Boz səhra ərazisi, neft buruqları və köhnə xaraba tikililər. Paytaxta daxil olan adam üçün Bakı haqda ilk təəssürat çox pis başlayır. Burada böyük yaşıllıq sahəsi, park salmaq üçün imkan var. Təəssüf ki, bununla heç kim maraqlanmır. Bu ərazi ARDNŞ-in balansındadır, lakin şirkət uzun illərdir bu hissəni abadlaşdırmaq, yaşıllaşdırmaq istəmir. Ərazidəki neft buruqlarının da çoxu istifadə olunmur. Digər ərazilərdə də belə yerlər var- məsələn Keşlə, Dərnəgül, Böyükşor, Binəqədi və s. Bu ərazilərdə yaşıllıqlar, parklar salınmalıdır.

Ümumiyyətlə, yaşıllıqların salınması, meşələrin bərpası üçün xüsusi Dövlət Proqramı qəbul olunmasına ehtiyac var. Qlobal ekoloji böhranların gözlənildiyi bir vaxtda ölkəmizi təbii məkana çevirmək əsas vəzifələrimizdən biri olmalıdır.

***Elçin Bayramlı***

# “Turistlərin ölkəmizi seçməsi üçün səbəbləri artırmalıyıq”

**“Qiymətlərin yüksəkliyi turistlər üçün maneədir dedikdə, əlbəttə ki, qiymətlər yüksək olarsa və bu qiymətlərin yüksək olması qarşılığında xidmətlər və göstərilən keyfiyyət qiymətin dəyərində olmasa, o zaman narahatçılıq yaranmağa bir səbəb olur. Amma hal-hazırda Azərbaycan üçün qiymətlərin yüksək olması nisbidir, çünki hazırda otel və restoran qiymətləri qonşu ölkələrlə müqayisədə daha əlverişlidir”. Bu sözləri SİA-ya açıqlamasında turizm eksperti Ceyhun Aşurov deyib.**





Ceyhun Aşurov sözlərinə belə davam edib: ”Hətta Türkiyə və Gürcüstanla müqayisədə də Azərbaycanda qiymətlər daha münasibdir. Söhbət turizmdən gedirsə, ölkəyə gələn turistlərin sayında azalma müşahidə olunur və bu da qiymətlərə təsir edir. Lakin əsas məsələ uçuş qiymətlərinin yüksək olmasıdır. Hazırda Azərbaycanın quru sərhədləri bağlıdır və ölkəyə əsasən hava nəqliyyatı vasitəsilə giriş-çıxış mümkündür. Bu səbəbdən tur paketlərinin qiymətlərində hava nəqliyyatı xərcləri ciddi rol oynayır. Belə olan halda, xarici turist üçün Azərbaycana gəlmək baha başa gəlir. Əgər turistin seçə biləcəyi başqa alternativlər varsa, o niyə məhz Azərbaycanı seçsin? Buna görə də biz, turistlərin ölkəmizi seçməsi üçün səbəbləri artırmalıyıq.

Bu səbəblər əlbəttə ki, təkcə qiymətlərlə bağlı deyil. Həm rahat marşrutların olması, ölkəyə gəlmənin rahat olması, hər hansı bir baryerin olmaması, vizanın olmaması və yaxud da vizanın çox asan olması - hansı ki, bu istiqamətdə müəyyən işlər görülmüşdür - eyni zamanda rahat və əlverişli şəkildə, münasib qiymətə ölkəyə gəliş-gedişin hava nəqliyyatından da olması, əlbəttə ki, buna öz müsbət təsirini göstərə bilər. Düşünürəm ki, hava nəqliyyatında biz ucuz hava daşıyıcılarını Azərbaycana cəlb edə bilsək, bu, qiymətlərin azalmasına səbəb ola bilər. Hazırda Azərbaycanın 9 beynəlxalq hava limanı var. Amma uçuşların 90 faizindən çoxu yalnız Bakı hava limanından həyata keçirilir. Digər hava limanları isə həm səmərəli çalışmır, həm də effektiv deyil. Ümumilikdə onların saxlanılması da əslində ciddi xərc tələb edir.

Ölkəyə daha çox turistin cəlb olunması üçün mütləq hava məkanlarının və hava limanlarının səmərəli çalışması, əlverişli qiymətlərlə xidmət göstərilməsi çox zəruridir və bu, həm də rəqabət mühitini artırmış olacaqdır. Ümumiyyətlə götürdükdə isə Azərbaycanda həm otellərin, qalma yerlərinin sayı artırılmalıdır ki, son dövrlərdə biz bunu görürük - qalma yerlərinin sayında müəyyən artım var. Bu artdıqca və eyni zamanda daha çox turist gəldikcə, düşünürəm ki, ölkəyə gəlmək üçün ilk növbədə onların logistikasını əlverişli etməliyik. Bu zaman turistlərin axınına müsbət təsir göstərəcək, demək olar. Qiymətlərin yüksəkliyi dedikdə, əsasən ölkəyə gəliş-gediş və nəqliyyat xərclərinin yüksəkliyini nəzərdə tuturam və hesab etmirəm ki, Azərbaycanda otellər, restoranlar və qidalanma qonşu ölkələrlə müqayisədə elə də bahadır”.

***Günel Fərzəliyeva***

# “Bu tarixi mərhələ bütün regionun gələcəyi üçün mühüm dönüş nöqtəsidir”

**“Azərbaycan ilə Ermənistan arasında Qarabağa görə olan münaqişə məhz antiterror əməliyyatlarından sonra bitdi deyə bilərik. Yəni artıq dönüş nöqtəsi oradan başladı. Məhz bundan sonra Azərbaycan artıq bütün cəbhə boyu diplomatik kanallarla hücuma keçdi”. Bu sözləri SİA-ya açıqlamasında deputat Razi Nurullayev deyib.**



Onun sözlərinə görə, antiterror əməliyyatlarının əsas məqsədi Qarabağ ərazisində qalan qanunsuz erməni silahlı birləşmələrinin zərərsizləşdirilməsi və Azərbaycanın konstitusiya quruluşunun bərpası idi: ”Əməliyyatların qısa müddətdə, minimal itkilərlə və dəqiq hədəflərlə həyata keçirilməsi Azərbaycanın hərbi gücünü və operativ imkanlarını nümayiş etdirdi. Bu uğur eyni zamanda, beynəlxalq aləmdə Azərbaycanın öz ərazisində suveren hüquqlarını bərpa etmək istiqamətində atdığı legitim addım kimi qəbul olundu. Çox yaxşı düşünülmüş xarici siyasət və aparılan danışıqlar nəticəsində Ermənistan da Azərbaycanın regionda yaratdığı geopolitik və siyasi reallığı qəbul etdi. Bundan sonra artıq digər ölkələr də bu reallığı qəbul etməyə başladılar. Artıq deyə bilərik ki, Azərbaycan ilə Ermənistan arasında münaqişə bitib. Bunun əsas səbəbi Azərbaycanın öz suveren ərazisində qanunsuz silahlı birləşmələrə qarşı həyata keçirdiyi antiterror əməliyyatları, bundan sonrakı mərhələdə aparılan uğurlu diplomatik siyasət və beynəlxalq hüquqa əsaslanan mövqeyidir. Bu tarixi mərhələ təkcə Azərbaycanın deyil, bütün regionun gələcəyi üçün mühüm dönüş nöqtəsidir”.

***Arzu Qurbanlı***



Elçin Bayramlı

# İtirilmiş Azərbaycan toyu

Azərbaycanda toy mərasimləri artıq milli adət-ənənələrimizdən uzaqlaşıb və böyük bir şou tədbirinə çevrilib. ”Azərbaycan toyu” anlayışı artıq demək olar ki, sıradan çıxıb. Bu mərasimlər yalnız dəbdəbə, hədsiz səs-küy, hədsiz israfçılıq və göstəriş ilə müşayiət olunur. Bizdə artıq Azərbaycan toyu deyil, müasir ”hoqqabazlıq” və ”görməmişlik” mərasimidir.

Bu toylar bizim milli mənəviyyatımıza, adət-ənənələrimizə və dini dəyərlərimizə uyğun deyil. Toylarda bahalı süfrələr, içki bolluğu və ekstravaqant tərzdə mərasimlər insanların diqqətini əsl məqsəddən yayındırır. 50-60 növ yemək, üçmərtəbəli süfrələr, saysız-hesabsız israfçılıq həm sosial, həm mənəvi baxımdan qəbuledilməzdir.

Əslində, toy bir ailənin qurulması, nigahın bağlanması və yaxınların səmimi təbriklərini paylaşması üçün keçirilməlidir. Amma hazırkı toylar tamamilə bunun əksini göstərir.

Toy mərasimlərinin bu cür dəbdəbəli olması ailələr üçün ciddi iqtisadi yük yaradır. Toy məclisini təşkil edən ailələr bəzən illərlə borc bataqlığında qalır. Ailə illərlə topladığı pulunu yeni qurulan ailəyə yox, toy biznesinə, şadlıq evlərinə və xidmət təminatçılarına xərcləyir. Bu, ailələr üçün tamamilə ədalətsizlikdir. Buna görə də ailələr yeni qurulan ailələrə dəstək üçün kredit götürür, borca girir, nəticədə isə illərlə bu borcları qaytarmaq məcburiyyətində qalırlar. Bu vəziyyət gənclərin evlənmək istəməməsinə, bəzilərinin isə evlənə bilməməsinə səbəb olur.

Bugünkü toylar sanki şeytan məclisinə çevrilib. Hər yerdə səs-küy, sərxoşluq və dəbdəbə hakimdir. Halbuki toy, dini və milli dəyərlərə uyğun keçirilməlidir. İnsanlar bir-biri ilə səmimi ünsiyyət qurmalı, yeni qurulan ailəyə dəstək olmalıdır. Amma hazırda toylar yalnız pul xərcləmək, göstərmək və rəqabət aparmaq məqsədilə keçirilir. Bu, tamamilə qeyri-insani və mədəniyyətsiz bir davranışdır.

Toylarda qonaqlara qarşı açıq şəkildə akustik terror həyata keçirilir. Musiqinin səsi o qədər yüksək qoyulur ki, var gücünlə bağırsan da yanındakına sözünü eşitdirə bilmirsən. Toydan sonra adam 1 gün özünə gələ bilmir.

Bu gün toy mərasimləri əsasən musiqi, dekorasiya, foto-video çəkiliş və iaşə sahələrində xidmət göstərən sahibkarlar üçün gəlir mənbəyinə çevrilib. Qazananlar yalnız onlardır, amma ailə bu dəbdəbənin yükünü uzun illər boyu daşımaq məcburiyyətində qalır.

Hazırkı mərasim forması 21-ci əsrin əvvəlindən başlayaraq tətbiq olunur və və getdikcə də eybəcərləşir. Hədsiz hoqqabazlıqlar, müxtəlif dəbdəbə, görməmişlik elementləri, özünü göstərmək meyli, dəhşətli israfçılıq və saysız-hesabsız oyunbazlıqlardan ibarət qəribə bir məclisdir. Bunun nə tarixi əsası var, nə mənəvi, nə sosial, nə də milli dəyəri.

Toya 500 nəfər çağırmaqla fəxr etmək cılızlıqdır. Toy mərasimi yalnız yaxın qohumların və dostların iştirakı ilə keçirilə bilər. Burada nikah mərasimi təşkil olunmalı, yeni ailəyə təbriklər və arzular deyilməli, yüngülvari yemək-içmək, musiqi və oynamaq da normal qaydada baş tuta bilər.

Qalan bütün hoqqabazlıqlar isə toya heç bir aidiyyəti olmayan, sadəcə əyləncə məqsədli, süni və qeyri-milli şou tədbirlərdir. Son dövrlər toylarımızda milli mahnılara çox az rast gəlinir. Hətta ”Vağzalı” belə dəyişdirilib. Onların yerini xarici mahnılar, küçə musiqiləri və müxtəlif bayağı mahnılar tutub. Bunlarla yanaşı, saysız-hesabsız hoqqabazlıqlar müşahidə olunur. İnsanlar ailə qurarkən maddi deyil, mənəvi dəyərlərə üstünlük verməlidirlər. Maddi zənginlik nümayiş etdirmək, özünü başqalarına göstərmək, çoxlu pul xərcləyib diqqət çəkməyə çalışmaq ailəyə heç bir fayda vermir- əksinə, zərər vurur, xüsusilə də maddi baxımdan.

Biz normal toy sisteminə qayıtmalıyıq. Keçmişdə olduğu kimi sadə süfrə, yüngül musiqi, yaxın qohumların iştirakı ilə keçən toylar təşkil edilməlidir. Bu mərasimlər bir neçə saatlıq olmalı, israfçılığa və görkəm yarışına çevrilməməlidir. Dəbdəbəli toylar yalnız ailələri iqtisadi yük altına qoymur, həm də milli dəyərlərimizə zərər vurur. Bu məsələdə cəmiyyətin nümunəvi şəxsləri- tanınmış insanlar, məmurlar, iş adamları və ziyalılar- öz davranışları ilə nümunə göstərməli, sadə və qənaətli toyları təşviq etməlidir. Əgər cəmiyyət bu məsələdə səssiz qalsa, toy mərasimlərinin vəziyyəti daha da ağırlaşacaq.

# QADIN:

## varlığı bəzən var olması deyil...

***Qadın böyük qüvvədir, deyənlər əsla yanılmayıb. Çünki həqiqətən də belədir. O varlıq ki, nəsli artırır, övlad tərbiyə edir, evinin xanımı, işığı olur, həyat yoldaşı ilə birlikdə ailə başçısı statusu daşısa da, yazılmamış qanunlar çərçivəsində müəyyən vəzifələri layaqətlə həyata keçirir, deməli, böyük qüvvədir. Məhz belə olanda 3-4, 5-6 nəfərin birgə yaşadığı ev evdən savayı, həm də bir ailənin ünvanı ola bilir.***

Dünyada qadınlar çoxdur. Ulu Yaradan onları yer üzünə qız övladı kimi bəxş edir. Onlara vəzifə və funksiyalarını eyni dərəcədə bəxş edir. Lakin bu qızlar ailələrimizdə tərbiyə alır, böyüyür, sonrakı həyatlarında ağıllı qadın ola bilirlərsə, gözəl ailə, iş sahibi də ola bilirlər. Ağıllı olmursa, hər bir qadının böyük arzusu olan ailədən məhrum olur və ya ailəsi olursa, lakin onun varlığı heç də bu ailədə var olması qənaətinə gəlmir.

Elə bu yazımda da qadın kimi varlıq olan, lakin çox halda var olduğu sezilməyən, özünü göstərməyən qadınlardan söhbət açmaq, bunun nə üçün belə olduğuna nəzər salmaq istədim. Beləliklə...







### Qadın ağıllı olarsa...

Ümumiyyətlə, ağıllı olmaq həm qadın, həm də kişi üçün mühüm amildir. Çünki bütün yaranmışlar içərisində Allah bizi məhz ağlımız ilə fərqləndirib, yaratdıqlarının alisi edib. Belə isə ağıllı olmağa haqqımız olduğu kimi, həm də bu, bizim vəzifəmizdir.

Qadının ağıllı olması ailə həyatında da çox vacibdir. Çünki nə qədər təhsil alsa da, iş sahibi olsa da, öz işində uğurdan-uğura addımlasa da, hər bir qadının bir arzusu var: ailə qurmaq, övlad sahibi olmaq. Bu arzusu ya tez, ya gec, dəyişməz olaraq qalır və hər qadın bir gün ailə qurmaq üçün yolçuluğa çıxır.



Bu məsələdə sevmək və sevilməkdən söhbət açmaq istəmədim. Çünki bütün ailələr sevgi üzərində qurulmur. Sevgi ilə yanaşı, məntiqlə qurulan ailələr də var və belə ailələrdə hörmət və sayğı zaman-zaman elə bir bağlılığa və sevgiyə çevrilir ki, bəzən bunu təsəvvür belə edə bilmirik.

Lakin ailənin sevgi üzərində və ya məntiqlə qurulmasından asılı olmayaraq onun əsas idarəedicisi olan qadın ağıllı deyilsə, ailəni öz ağlı və bacarığı ilə yönəltmirsə, bu evlilik ailəyə çevrilə, əsl ailə dəyərlərini özündə ehtiva edə bilmir.

Qadının ağıllı olması dedikdə söhbət nədən gedir sualını ünvanlayanlar da ola bilər. Bəli, dünən gördüyümüz, içərisində yaşadığımız ailələrimiz olub. Biz onlardan görmüşük, öyrənmişik. Bilmişik ki, kişi səhər çıxıb axşam gəlir, qazanc ardınca gedir. Evin, ailənin ağırlığı qadının zərif çiyinləri üzərində qalır: uşaq tərbiyəsi, evin idarə olunması, çox halda ailə büdcəsinə nəzarət. Xüsusilə də mənəvi dəyərləri qoruyub yaşatmaq, onları vaxtaşırı yerli-yerində həyata keçirmək qadının üzərindədir. Ağıllı qadının yanaşması, idarəçiliyi ilə bütün bunlar çox asanlıqla, planlı şəkildə həyata keçir. Lakin ağlından istifadə etmək istəməyən, eynihüquqlu anlayışını ortaya atıb yazılmamış qanunlara əməl etməyən qadınların varlığı yuxarıda da dediyim kimi, çox vaxt onların var olması anlamına gəlmir. Çünki onlar qadın kimi üzərinə düşən vəzifələrdən boyun qaçırır, milli-mənəvi dəyərlər toplusuna xələl gətirən hərəkətlər etməklə, öz ailəsini qura, inkişaf etdirə, gələcəyə götürə bilmir.

Qadının ailə içərisində saymaqla bitməyən öhdəlikləri var. Bunların hər biri hökmən həyata keçiriləndə ailə yaranır, ailə dəyərləri qorunur. Lakin gəlin baxaq, görək, hər qadın bu dəyərləri qoruya bilirmi?

### Bu arada...

Kiçik, lakin çox böyük mənaya malik olan bir məsələni xatırlamaq istəyirəm. Hər birimizin çox yaxşı tanıdığımız Şeyx Şamildən soruşanda ki, necə oldu ki, sən Şeyx oldun, cavabında buna həyat yoldaşının sayəsində nail olduğunu demişdi. Necə olmuşdu bu? Şeyx Şamil izah edirdi ki, mən evə girərkən həyat yoldaşım ayağa qalxırdı, sonralar onun bu hərəkətini övladlarım da təkrarladı. Daha sonra qonşular, məhəllə və məmləkət. Beləliklə, mən haraya gedirdimsə, hər kəs ayağa qalxır, mənə sayğı göstərirdi.

Bu misalı çəkməkdə məqsədim qadının həqiqətən böyük qüvvə olması fikrini bir daha təsdiqləməkdir. Qadın istəyərsə, bacararsa, öz həyat yoldaşını dağların zirvəsinə qaldırar, istəməzsə, bacarmazsa, onun dağın ətəyindəcə qalmasına səbəb olar.

Müasir dövrdə bəzi qüvvələr qadınlara "ağıl" verir ki, bəs siz kişilərlə eyni hüquqdasınız. Bu, əlbəttə belədir. Hələ peyğəmbər dövründə belə qadınlara hörmətdən, onlara qayğıdan bəhs olunur, bu əsas müddəalar kimi kişilərə tövsiyə olunurdu. Bu gün isə əks təbliğata uyan bəzi qadınlar var ki, həyat yoldaşı işdən yorğun-arğın gələndə onun ayağına belə qalxmır. Mən nə üçün qalxım ki, onunla bərabərhüquqluyam deyir. Lakin unutmayaq ki, bəzi Avropa ölkələrindən fərqli olaraq bizim ayrıca ailə instutumuz var və biz bu institutda zaman-zaman dərsimizi başqa yöndə öyrənmişik.

Öyrənmişik ki, qadın həyat yoldaşını işə yola salar, axşam qayıdanda qarşılayar. Ona qayğı ilə yanaşar. Yemək və çay hazırlayar, yolunu gözləyər. O, evə gələndən sonra qulluğunda dayanar. Kişi evə yubananda qazandan birinci onun payını ayırar, bir kənara qoyar, daha sonra uşaqlara yemək verər.

Təəssüf ki, müasir dövrün bəzi insanları bütün bunları qəbul etmir. Yeməyi birinci kişi üçün çəkməyi, kişi içəri girəndə onun ayağına qalxmağı, uşaqları sakitləşdirməyi qadın və uşaq hüquqlarının pozulması kimi təqdim edir.

Lakin bizim bir-birindən dəyərli ailə qanunlarımız var ki, bu qanunlar yazılmayıb, amma şifahi şəkildə yaddaşımıza hopub. Biz bu yaddaşla həmin qanunları ənənələrə çevirmişik, onları hər birimiz öz ailəmizdə tətbiq etməklə, dəyərlərin yaşadılmasına töhfə vermişik.

### Belə isə...

Kim hansı qaydalarla yaşayırsa, hansı müasirliklə həyatını davam etdirirsə, qoy etsin. Biz azərbaycanlı ailəsi olaraq qədim ailə dəyərlərimizlə ailələrimizi idarə edək. Yəni, ata-babadan necə görmüşüksə, elə də davam edək.

Həyat yoldaşımızın ayağına qalxmaq, onun qayğısına qalmaq, əsəbiləşəndə sözünün qarşısına söz deməmək, səbir nümayiş etdirmək, uşaqları da bu cür şəraitdə böyütməyin nəyi pisdir?

Bir evdə qadın öz həyatını, kişi öz həyatını, uşaqlar da öz həyatını yaşayacaqsa, bu, heç vaxt ailə ola bilməz. Ailə o deməkdir ki, burada yaşayan fərdlər bir-birinə qayğı və sayğı ilə bağlansın. Bir-birinə ürəkləri yansın. Yatan insanın rahatlığı üçün sakitlik yaradılsın, ac insan üçün yemək hazırlansın, yorğun insanın istirahəti təmin olunsun. Bax bütün bunlar ailə anlayışını yaradır. Bir evdə yaşayan insanların bir-birinə soyuq rəftarı qayğısızlıq və sayğısızlıqla nəticələnər ki, buna ailə demək gülünc olar.

Odur ki, nə qədər müasirləşsək də, ailələrimizin yazılmamış qanunlarını unutmayaq. Onu da unutmayaq ki, qadın böyük qüvvədir. O, həyat yoldaşına bəslədiyi hörmət və sayğı ilə həm də dünyaya gətirdiyi övladlarını tərbiyə edir. Şərt o deyil ki, uşağı qarşısına qoyub ona nəyin necə olmasını danışasan. Ananın etdiyi hər bir hərəkət zamanla övladın göz yaddaşına köçür. Və gələcək həyatında o da gördüyünü təkrar edir.

Qadının böyük qüvvə olmasının sirri də elə bundadır ki, onun hər bir hərəkəti övladı üçün nümunədir, dərsdir, məktəbdir. Lakin müasirliyə boyun əyən qadınlar var ki, ailə dəyərlərimizi unutmaqla yeni qaydada yaşamağı seçir. Məncə belə qadınların varlığı onların var olması demək deyil. Hər evdə qadın həyat yoldaşı, ana kimi var. Lakin bu varlıq hər zaman varolma deyil. Var olmaq ailə dəyərlərimizə sadiqliklə, onu qorumaq, yaşatmaqla, gələcək nəsli bu dəyərlər fonunda tərbiyə etməklə, kişini öz gözündə də, uşaqların gözündə də ucada saxlamaqla, ona ataböyük kimi baxmaqla, bir sözlə yazılmamış, lakin gözəl ailə qanunlarımızı həyata keçirməklə ola bilər.

***Mətanət Məmmədova***

# Azərbaycan nəsrinin yetirdiyi Yusif Səmədoğlu

## *Dövlət başçısının Sərəncamı ilə Yusif Səmədoğlunun 90 illiyi qeyd ediləcək*

İnsanın daxili aləmini, onun estetik zövqünü formalaşdıran, mənəvi zövq verən sənət əsrlərdir ki, inkişaf yolu keçərək təkmilləşmiş, sivil səviyyəyə yüksəlmişdir. Sənət meyarları baxımından dolğunluğunu, bədiiliyini təsdiqləyən sənətin istənilən növü yaradıcı insanların təxəyyülünün məhsulu olmaqla yanaşı, həyatın gerçəkliyinin müxtəlif formada təzahürü tək meydana çıxır. Bütün varlıqlar yaşam tərzindən asılı olmayaraq kiçik yaşlarından ən azı sənətin hansısa növünü müşahidə edir, onun təmiz hafizəsində yaşına, qavrayışına uyğun olaraq fikirlər formalaşır. Hər birimiz bu yolu keçmişik, kiçik yaşında hafizəmizdə salınan izlər tələbat baxımından sonralar daha gözəl, rəngarəng, estetik tələbatımıza uyğun olan sənət nümunələri tələb edib. Hər nəslin - gənc, orta və yaşlı nəslin nümayəndəsi olan Azərbaycan sənətsevərlərinin yaddaşında klassik sənətin gözəl, əsrarəngiz nümunələri izini salmışdır. Ən nadir inciləri əxz etmək istəyi yaranmışdı sənətsevərlərdə. Etiraf edək ki, Azərbaycanda sənət mükəmməlliyi ilə hər zaman diqqətdə olub və bu gün də dünya ictimaiyyəti bu irsimizə valehedici şəkildə tamaşa edir. Tarix boyu formalaşan milli sənətimiz müasir dövrümüzdə də fərdi xəttlə inkişaf dövrünü yaşayır. Bu gün dünya ölkələrinə Azərbaycan mədəniyyət günlərinin təşkili, beynəlxalq festivallarda, müsabiqələrdə Azərbaycanın uğurları, öncül yerlərdən birinə sahib çıxması və s. nailiyyətlərimiz bizi müşayiət edən qalibiyyətimizdir.

Azərbaycanın milli mədəniyyət və incəsənətindən söz açdıqda nə qədər sayda sadalanılası məqamlar göz önündən keçir. Azərbaycanın böyük sənət beşiyi olduğunu təsdiqləyir və qəbul edilir. Bu gün mükəmməl əsərlərimizə və onların yaradıcılarına dövlətimiz tərəfindən böyük diqqət və qayğı vardır. Azərbaycan Prezidenti İlham Əliyevin ”Yusif Səmədoğlunun 90 illiyinin qeyd edilməsi haqqında” Sərəncamı bunun aydın təzahürüdür.

2025-ci ilin dekabr ayında Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi, Xalq yazıçısı, tanınmış ictimai xadim Yusif Səmədoğlunun (Yusif Səməd oğlu Vəkilovun) 90 illiyi tamam olur.

Sərəncama əsasən, milli bədii fikir xəzinəsinin zənginləşməsi işinə layiqli töhfələr vermiş Xalq yazıçısı Yusif Səmədoğlunun 90 illik yubileyinin qeyd olunmasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının



Mədəniyyət Nazirliyi, Azərbaycan Yazıçılar Birliyinin təkliflərini nəzərə almaqla, onun 90 illik yubileyinə dair tədbirlər planını hazırlayıb həyata keçirəcəkdir.

Yusif Səmədoğlu XX əsr Azərbaycan nəsrinin yetirdiyi nadir istedada malik böyük simalardandır. Yüksək bədiilik nümunəsi olan dərin ictimai-mənəvi məzmunlu əsərləri, o cümlədən hekayələri, romanları və film ssenariləri ilə ədəbi prosesdə iz qoymuş yazıçının ötən əsrin 60-70-ci illərində milli nəsrin keyfiyyətcə yeni mərhələyə keçməsində xüsusi xidmətləri vardır. Parlaq mədəniyyət hadisəsinə çevrilən, dünya və insan haqqında məşhur ”Qətl günü” romanı ədibə Azərbaycanın hüdudlarından uzaqlarda da şöhrət qazandırmışdır. Yusif Səmədoğlu rəhbəri olduğu mühüm ədəbi-bədii məcmuələrdən milli düşüncə və ideyanın daha geniş yayılması üçün tribuna kimi istifadə etmiş, ölkədə azadlıq hərəkatının və müstəqillik uğrunda mübarizənin ön sıralarında dayanmış, xalqın taleyüklü məsələlərinə münasibətdə həmişə vətəndaş-ziyalı mövqeyi ilə seçilmişdir.

Onun tərcümeyi-halına nəzər salarkən görürük ki, Yusif Səmədoğlu 1935-ci il dekabrın 25-də Bakı şəhərində, məşhur Azərbaycan şairi Səməd Vurğunun ailəsində anadan olmuşdur. Əslən Qazax rayonunun Yuxarı Salahlı kəndinin Vəkilovlar soyundandır. Moskvada Yazıçılar İttifaqı nəzdində olan M.Qorki adına Ədəbiyyat İnstitutuna daxil olmuşdur (1953). Həmin İnstitutun IV kursundan ADU-nun Filologiya fakültəsinin beşinci kursuna dəyişilmişdir (1957-1958). 1958-ci ildən Azərbaycan Yazıçılar Birliyinin üzvü olmuşdur.

”Azərbaycan” jurnalı redaksiyasında ədəbi işçi, nəsr şöbəsinin müdiri (1960-1965), C. Cabbarlı adına ”Azərbaycanfilm” kinostudiyasında kinostudiyanın ssenari redaksiya heyətinin üzvü (1965-1969)[1], baş redaktoru, ”Azərbaycanfilm” kinostudiyasının direktor müavini (1969-1976), ”Ulduz jurnalının baş redaktoru (1976-1987), ”Azərbaycan” jurnalının baş redaktoru (1987-ci ildən) vəzifələrində işləmişdir. Azərbaycan Yazıçılar Birliyi katibliyi heyətinə (nəsr üzrə katib) seçilmişdir (1991).

”220 saylı otaq” (1960), ”Qalaktika” (1973), ”Qətl günü” (1987) kitablarının müəllifi olmuşdur. Yazıçı 1959-cu ildə ”Yaddan çıxmış sözlər” novellasında, ”Xəzri” hekayəsində cəsarətlə Vətənimiz üçün faciə olan mühüm tarixi hadisəni qələmə alaraq, ”Türkmənçay - 1828-ci il” müqaviləsini yada salmış, oxucularını bu hadisəni unutmamağa, bu barədə düşünməyə çağırmış, torpaqlarımızın iki yerə parçalanması dərdi-acısı ilə Təbriz harayı qaldırmışdır.

80-ci illərin axırları, 90-cı illərin əvvəllərində Y.Səmədoğlu xalq hərəkatının öncüllərindən birinə çevrilmişdi. 1990-cı ildə müstəqil Azərbaycanın ilk parlament üzvü olmuş, parlamentin Xarici Əlaqələr Komissiyasının rəhbəri kimi Azərbaycanın haqq sözünün dünya ictimaiyyətinə çatdırılmasında böyük işlər görmüşdür. Ulu öndərimiz Heydər Əliyev Y.Səmədoğlunun 60 illik yubiley mərasimində çıxış edərək onun Azərbaycan dövləti və mədəniyyəti qarşısında olan xidmətlərini yüksək qiymətləndirmişdir: ”Yusif cəmiyyətimizə təkcə yazıçı kimi, mədəniyyət xadimi kimi yox, eyni zamanda görkəmli ictimai-siyasi xadim kimi daxil olubdur. Azərbaycanın həyatı üçün və xüsusən son illərdə Azərbaycanda milli azadlıq hərəkatının inkişafı üçün, xalqımızda milli dirçəliş, milli oyanış hisslərinin yaranması və inkişafı üçün, Azərbaycanın müstəqilliyi uğrunda mübarizə üçün onun fəaliyyəti çox əhəmiyyətli, çox gərəkli olmuşdur”.Milli vətənpərvərlik ruhunda olan yazıçı 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə, saat 23:30-da keçmiş Sovet İttifaqının qoşun hissələri tərəfindən Bakıda törədilən qırğınlarla bağlı Azadlıq radiosu vasitəsilə dünya ictimaiyyətinə çatdırmışdır.

Onu da qeyd edək ki, o, Azərbaycan Respublikası Ali Sovetinin deputatı (1990) olmuşdur. 1998-ci il avqustun 16-da vəfat etmişdir.

Xalq yazıçısı Yusif Səmədoğlu XX əsr Azərbaycan ziyalılığının ən ali keyfiyyətlərini öz şəxsiyyətində daşıyan, mənsub olduğu nəsli təmsil edən bir insan olmuşdur. O, həyatı boyu, həm ədəbi, həm də ictimai-siyasi fəaliyyətində azərbaycançılıq mövqeyində durmuş, azadlıq, demokratiya, müstəqillik duyğusu ilə yaşamışdır. Y.Səmədoğlu XX əsr Azərbaycan ədəbiyyatı tarixində özünəməxsus yer tutaraq, həyata, gerçəkliyə fərqli münasibəti, dünyagörüşü ilə seçilmişdir. Millilik, milli-mənəvi dəyərlərimizin qorunub saxlanılması, milli mədəniyyətin, milli əxlaqın gənc nəslə çatdırılması baxımından onun əsərlərinin dəyəri böyük əhəmiyyət kəsb edir.

Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın Yusif Səmədoğlu haqqında dediyi kimi, ”Vaxtsız ölüm onu bizdən ayırsa da, bir həqiqət əbədi yaşayır ki, öz sözünü, möhürünü zamana vura bilən hər kəs yaşayır və öz xalqına həmişə başucalığı gətirir”.

***Zümrüd BAYRAMOVA***

# “Böyük Qayıdış Azərbaycanın dövlətçilik tarixində strateji mərhələdir"

“Böyük Qayıdış” proqramı müasir Azərbaycan tarixində yalnız sosial layihə deyil, həm də strateji siyasi və milli dövlətçilik konsepsiyası kimi mühüm əhəmiyyət kəsb edir. Bu proses işğaldan azad olunmuş ərazilərə vətəndaşların mərhələli şəkildə geri dönüşünü təmin etməklə yanaşı, Azərbaycanın suverenliyini möhkəmləndirir və bölgədə dayanıqlı inkişafın əsasını qoyur”. Bu sözləri SİA-ya açıqlamasında millət vəkili Jalə Əliyeva deyib.Onun sözlərinə görə, Böyük Qayıdış milli həmrəyliyin gücləndirilməsində həlledici rol oynayır. Uzun illər doğma yurdlarından didərgin düşmüş on minlərlə insanın geri qayıtması onların sosial ədalət hissini bərpa edir, milli kimlik və birliyimizi möhkəmləndirir. Bu, həm də Azərbaycan xalqının torpaqlarına olan sarsılmaz bağlılığının ən bariz təzahürüdür: ”Böyük Qayıdış təkcə demoqrafik proses deyil, eyni zamanda sosial-iqtisadi inkişaf proqramıdır. İşğaldan azad edilmiş ərazilərdə müasir infrastruktur qurulur, kənd təsərrüfatı, sənaye, turizm və xidmət sahələri inkişaf etdirilir. Bu, həm yeni iş yerlərinin açılmasına, həm də regionların ölkə iqtisadiyyatına inteqrasiyasına şərait yaradır. Beləliklə, Böyük Qayıdış Azərbaycanın ümumi iqtisadi gücünü artıran bir amilə çevrilir. Böyük Qayıdışın geosiyasi əhəmiyyəti də xüsusi qeyd olunmalıdır. İşğaldan azad olunmuş ərazilərdə həyatın bərpası Azərbaycanın ərazi bütövlüyünü və dövlət suverenliyini faktiki olaraq gücləndirir.

Bu, regionda sülh və təhlükəsizlik üçün yeni reallıqlar yaradır və Azərbaycanın beynəlxalq nüfuzunu artırır.Nəhayət, Böyük Qayıdış yalnız bugünkü nəsillər üçün deyil, gələcək nəsillər üçün də mühüm bir mirasdır. Bu proses həm tarixi ədalətin bərpasıdır, həm də yeni dövrün - inkişaf etmiş, güclü və dayanıqlı Azərbaycanın qurulmasının əsasını təşkil




edir. Böyük Qayıdış Azərbaycanın dövlətçilik tarixində strateji mərhələdir. O, həm milli kimliyin möhkəmlənməsi, həm sosial-iqtisadi inkişafın sürətlənməsi, həm də ölkənin beynəlxalq nüfuzunun artması baxımından mühüm tarixi əhəmiyyətə malikdir”.

***Ziya Hikmətoğlu***

# Çoxqütblülük və parçalanma arasında

## Cənubi Qafqaz və Mərkəzi Asiya üçün yeni geosiyasi layihələr və inkişaf perspektivləri haqqında





***Cənubi Qafqazın siyasi xəritəsi bu gün növbəti əməkdaşlıq memorandumları çərçivəsində ölkələrin təsir xətlərinin mürəkkəbin qurumasından daha tez dəyişdiyi hərəkətli mozaikanı xatırladır. Ermənistan Qərbdə müdafiə axtarır, Azərbaycan Türkiyə ilə əlaqələri gücləndirir, Gürcüstan NATO və Rusiya ilə iqtisadi əlaqələri balanslaşdırır. Bu arada "Tramp körpüsü" ideyası regionun üzərindən asılır ki, bu da bəzilərinə görə Qafqazı Mərkəzi Asiya ilə birləşdirə bilər, digərlərinə görə isə bu, yalnız qeyri-sabitlik əlavə edəcək.***

Bölgənin geosiyasəti üzrə aparıcı rusiyalı ekspert, MDBMİ-nin elmi işçisi, "International Analytics" jurnalının baş redaktoru Sergey Markedonovla Rusiyanın Cənubi Qafqazda təsirini itirib-itirməməsi, Bakı ilə İrəvan arasında xarici oyunçularla yaxınlaşmanın nə dərəcədə davamlı olması, Türkiyə və Çinin hansı rol oynaya biləcəyi, ABŞ və İranın bu məsələdə rolu olub-olmaması barədə "Eurasiatoday" nəşrinə müsahibəsində danışıb. Bu müsahibədə ekspert yeni geosiyasi layihələr və Transqafqaz və Mərkəzi Asiya üçün inkişaf perspektivləri haqqında ətraflı danışır. Region ölkələri arasında mürəkkəb münasibətlər, xarici aktorların təsiri və gələcək illər üçün mümkün ssenarilər müzakirə edilib.

***- Sergey Miroslavoviç, son illər Ermənistan və Azərbaycan Rusiyadan uzaqlaşır, ABŞ, Aİ, İran və Türkiyə ilə yaxınlaşır. Sizcə, bu prosesin əsas səbəbləri və miqyası nədən ibarətdir?***

- İndi Cənubi Qafqazda "rus hegemonluğunun sonu" haqqında çox danışılır. Məsələn, nüfuzlu alman tədqiqatçısı Stefan Meister və Avrasiya üzrə tanınmış amerikalı ekspert Cefri Mankoff demək olar ki, eyni vaxtda bu mövzuda materiallar dərc edirlər. Amma sistemli şəkildə baxsaq, ilk növbədə hegemonluğun nə olduğunu anlamaq və bununla nə demək istədiyimizi müəyyən etmək lazımdır. Əks halda, təhlil əvəzinə sensasiya dalınca düşəcəyik və "tarixin sonu"ndan yeni tərzdə danışacağıq. Yalnız bu dəfə "Rusiya hökmranlığı"nın sonu.

Əgər Ermənistanı götürsək, onda xarici siyasətin şaxələndirilməsi və Avropaya inteqrasiya ilə bağlı bəyannamələrə baxmayaraq, 2004-cü ildə ölkənin ticarət dövriyyəsinin 40%-dən çoxu Rusiyanın payına düşüb. Üçdə birdən çox! Gürcüstanla diplomatik əlaqələrin olmamasına baxmayaraq, Rusiya ilə iqtisadi əlaqələr inkişaf edir və 2024-cü ildə ticarət dövriyyəsi 2,5 milyard dollara çatıb.

Azərbaycan ictimai şüurda neftlə assosiasiya olunur, lakin daxili istehlak üçün belə Rusiya neftini alır. Rusiyanın hərbi mövcudluğu qalır - Ermənistandakı 102-ci baza fəaliyyətdədir və Rusiyanın Abxaziya və Cənubi Osetiyanı tanıması bu ölkənin NATO ilə əməkdaşlığından asılı olmayaraq, onu Gürcüstan üçün əsas oyunçuya çevirir. Rusiya və Azərbaycanın Dağıstanda ümumi, problemli sərhədi və Xəzər dənizində dəniz sərhədi var.

Nəticə nədir? Rusiyanın Qafqaz ölkələri ilə münasibətləri xətti proses deyil, əksinə enişli-yoxuşlu sinus dalğadır. SSRİ-nin dağılmasından keçən 30-cü il ərzində münasibətlərin pisləşdiyi və yaxşılaşdığı dövrlər olub. Məsələn, 2008-ci ildən sonra Gürcüstanla diplomatik əlaqələr kəsildi, iqtisadi əlaqələr isə əksinə, möhkəmləndi. Ermənistan və Azərbaycan müxtəlif səbəblərdən Rusiyanın təsirinin zəiflədiyini hiss edirdilər. Ermənistan Moskvadan birmənalı dəstək gözlədiyi üçün 2020-2023-cü illərdə baş verən hadisələrdən məyus oldu və İrəvanın gözləntiləri özünü doğrultmadı. Qarabağ və ətrafındakı ərazilərin qaytarılmasından sonra Azərbaycan Rusiyadan daha az asılı vəziyyətə düşüb və başqa xarici istinad nöqtələri axtarır.

***- Digər oyunçularla yaxınlaşma nə dərəcədə davamlıdır?***

- Bu vacib sualdır. Qərb analitikləri tez-tez hesab edirlər ki, strateji nöqtələr kimi Qafqaz ölkələrində yalnız Rusiya maraqlıdır. Amma Rusiya həm də Ermənistana və Azərbaycanın özünə lazımdır. Aİ Ermənistanla danışır, lakin hələlik təhlükəsizliklə bağlı substantiv dialoq yoxdur. Sərhəddəki AB missiyası müşahidə ilə məşğuldur, lakin təhlükəsizliyə zəmanət vermir. Azərbaycan isə indi özünə arxayındır.

***- "Tramp körpüsü" və Zəngəzur dəhlizi deyilən məsələyə keçə bilərikmi? Onlar Cənubi Qafqazda qüvvələr balansını dəyişə bilərlərmi?***

- "Tramp körpüsü" layihəsi daha çox gözəl jurnalist ideyasıdır. Heç olmasa bu gün. Bölgənin problemi ondadır ki, sovet dövründə nəqliyyat kommunikasiyaları anklav və eksklavlarla təşkil edilmişdi, lakin hər şey "vahid xalq təsərrüfatı kompleksinə" bağlı idi. Ancaq bu, 30 ildən çox əvvəl məhv edildi. Yeri gəlmişkən, nəqliyyat rabitəsi SSRİ-nin sonlarında etnosiyasi münaqişələrdə yıxılan ilk "qala" idi. Blokadalar və vahid logistikanın pozulması 1980-ci illərin sonlarında başladı. Amma indi region bərpa olmadan tam inkişaf edə bilməz, lakin yeni dövlətlərarası əsasda, logistika zəncirləri.

Rusiya 2020-ci ilin noyabrında və 2021-ci ilin yanvarında birgə bəyanatlarında Azərbaycanın qərb rayonları ilə Naxçıvan arasında yüklərin Ermənistan ərazisindən keçməsini təmin etmək mexanizmini təklif edib. Lakin şübhələr və fikir ayrılıqları səbəbindən bu məsələ dayandırılıb. Ukraynada müharibənin başlaması ilə Rusiya diqqətini Ukraynaya yönəltdi, Qərb isə öz təşəbbüslərini gücləndirdi. 2024-cü ildə ABŞ Konqresi Qafqaz və Mərkəzi Asiyanı birləşdirmək və Rusiyadan asılılığı azaltmaq üçün kommunikasiyaların blokdan çıxarılmasını müzakirə edib.

Lakin bu layihə İran və Rusiya üçün problemlər yaradır, çünki o, İran sərhədində Amerikanın olmasını nəzərdə tutur və Rusiya, İran və Çinin maraqlarını nəzərə almır. Moskva mənfi reaksiya verir, çünki NATO Rusiya Federasiyasının tərkibində olmayan, lakin birtərəfli fəaliyyət göstərən ən böyük hərbi blokdur. Amma "Tramp yolu"nda əsas odur ki, bu ideyanın özü ilkin olaraq konfliktli kimi planlaşdırılıb, bu layihədə Rusiyaya yer yoxdur, onun maraqları sadəcə olaraq nəzərə alınmır.

***- Ermənistan və Azərbaycanın siyasi elitasının bu layihəyə münasibəti necədir?***

- Azərbaycanda siyasi hakimiyyət çox güclüdür, daxildən təsir mümkün deyil. Ermənistanda müxalifət pərakəndə və səmərəsiz olsa da, Paşinyanın siyasətini tənqid edənlər var. O, Qarabağın itirilməsindən sonra sülh ideyasına köklənib, lakin sülh sazişlərinin balansı suallar doğurur. Müxalifət soruşur ki, güzəştlərin həddi haradadır?

Azərbaycan ilk növbədə öz maraqlarını irəli sürür, onun köməyi ilə o qədər də vacib deyil. Ermənistanda Paşinyanın siyasətinin ölkə üçün uzunmüddətli baxışı təmin etməməsi riski var.

***- Paşinyan bu yaxınlarda Ermənistanın ŞƏT-ə üzv olmaq niyyətini açıqladı. Bu nə dərəcədə real və faydalıdır?***

- Başlanğıc üçün demək istərdim ki, İrəvan ölkənin xarici siyasətinə təzyiq göstərmək istəyən Qərb tərəfdaşlarının təzyiqi ilə üzləşir. Məsələn, Paşinyan bəzi Aİ nümayəndələri tərəfindən ciddi siyasi təzyiqlərə məruz qalıb, lakin buna baxmayaraq, o, Böyük Vətən Müharibəsində Qələbənin 80 illiyinə həsr olunmuş Qızıl Meydanda keçirilən Paradda iştirak edib. Eyni sözləri Azərbaycan Prezidenti haqqında demək olmaz.

Bundan əlavə, ŞƏT təhlükəsizlik təşkilatından iki mərkəzdən - Rusiya və Çindən ibarət əsasən iqtisadi layihəyə çevrilib. Hindistan və Pakistan arasındakı daxili mübahisələri, eləcə də iqtisadi prioritetləri nəzərə alaraq Pekin genişlənməyə şübhə ilə yanaşır. Rusiya buna təsir kanalı kimi baxa bilər, lakin nüanslarda fərqlər var.

***- Qafqaz və Mərkəzi Asiyada yeni geosiyasi konfiqurasiyanın formalaşmasında Türkiyənin rolu nədir?***

- Türkiyə postsovet məkanında fəaldır. 2020-ci ildə status-kvonun dəyişdirilməsində, Azərbaycana hərbi və diplomatik yardımla dəstək verilməsində əsas rol oynadı. 2020-ci ildən sonra Türkiyə ilə Azərbaycan arasında əməkdaşlığı gücləndirən strateji bəyannamə imzalanıb. Türkiyə Gürcüstanın əsas iqtisadi tərəfdaşıdır, xüsusən də sözün geniş mənasında İslam mədəni təsirinin də güclü olduğu Acarıstanda. Türkiyə Azərbaycanla sülh müqaviləsi tələbi ilə öz gündəmini Ermənistana qarşı istifadə edir. Ümumiyyətlə, Türkiyənin Qafqaz və Mərkəzi Asiyada rolu artır, lakin region ölkələri suverenliyə dəyər.

***- Yaxın 5-10 il ərzində Qafqazda hadisələrin inkişafı üçün hansı ssenariləri görürsünüz?***

- Region getdikcə mürəkkəbləşir, bir çox oyunçuların - Rusiya, Qərb, Türkiyə, İran, Çinin maraqları kəsişir və rəqabət aparır. Ukraynada müharibə uzanarsa, o zaman Moskvanı regiondan sıxışdırmaq cəhdləri daha da güclənəcək. Bununla belə, proses xətti deyil, qayıdış və dəyişikliklər mümkündür. Münaqişələr böyüyə bilər, lakin dəqiq ssenariləri proqnozlaşdırmaq çətindir.

**V.SALAH (TƏRCÜMƏ)**

# Ən ali insani keyfiyyət: xeyirxahlıq

## 4 sentyabr Ümumdünya Xeyirxahlıq Günüdür



Xeyirxahlıq bu dünyada insana özünü yaxşı hiss etdirə biləcək ən böyük əməldir. Bu, əslində, insanın öz mənəviyyatına etdiyi ən böyük kapitaldır, maddi olmayan, mənəvi yatırımdır. Birinə yaxşılıq etmək, xeyir iş görmək insan mənəviyyatı üçün inanılmaz bir qidadır. Biz yeyərək maddi bədənimizi doyururuq, amma ruhi bədənimiz acanda onu yedirtmək üçün tənbəllik edirik. Halbuki, xeyirxahlıq ruhun qidasıdır, onu qidalandırmaqla özümüzə yaxşılıq edirik əslində. Bədənimiz doyanda necə rahatlıq tapırıqsa, ruhumuz doyanda da eyni rahatlığı hiss edirik. Yəni, xeyirxahlıq etmək



bizi xoşbəxt edir.

Yaxşılıq etmək, başqalarına kömək etmək, xeyirxah insan olmaq sağlamlığımız üçün faydalıdır. Çünki həm yaxşılıq edən, həm yaxşılıq edilən, həm də bu yaxşılığa şahid olanlar bu prosesdə məmnunluq hissi yaşayırlar. İstər yaxşı iş gör, istər sənə yaxşılıq edilsin, istərsə də başqasına edilən yaxşılığa şahid olasan, hər üç halda beynimizdən oksitosin hormonu ifraz olunur. Bu hormon qorxu, narahatlıq və stressi azaldır, eyni zamanda sakitlik və təhlükəsizlik duyğusunu artırır. Sevgi hormonu kimi tanınan oksitosinin, qan təzyiqini aşağı saldığı, ümumi ürək sağlamlığının yaxşılaşmasına kömək etdiyi, özünə inamı artırdığı da məlumdur. Bu hormon həmçinin bədənimizdə nikbinlik və qarşılıqlı münasibətlərdə empatiya və bağlılıq hissini gücləndirir.

Həmçinin, yaxşı işlər görəndə, xeyirxahlıq edəndə beynimizdə, adətən idmandan sonra da ifraz olunan endorfin hormonu ifraz olunur və bu hormon insan bədənindəki ağrıları azaltmaq funksiyasını yerinə yetirir. Üstəlik yaxşılıq etmək orqanizmimizin ən təhlükəli reaksiyalarından biri olan stressi azaldır və dolayısı ilə stresslə bağlı yaranan xəstəliklərdən qoruyur. Yaxşılıq edən, xeyirxah işlər görən insanın orqanizmində dərhal serotonin ifraz olunmağa başlayır. Yaxşılıq etdiyimiz zaman bədənimiz sakitləşdirici effekti verən, xoşbəxtlik hormonu tanınan serotonin istehsal etməyə başlayır. Başqa sözlə desək, xeyirxahlıq etmək təkcə xoşbəxtliyi artırmır, həm də insanları depressiv vəziyyətdən çıxarır.



İnsan övladı yaranışından bu günədək xoşbəxtlik, mənəvi rahatlıq tapmağın bütün mümkün yollarını axtarıb. İbadət etmək, başqalarına yardım etmək, kimsəsizə kimsə olmaq, ehtiyaclının əlindən tutmaq kimi istəklər beləcə yaranıb. Xeyirxahlıq insanlıq əlaməti olmağa başlayandan bu günədək insan mənəviyyatı da yüksəlib. Xeyirxahlıq asılılıq yaradır insanda, bir dəfə etsinsə ömür boyu etmək istəyirsən. Çünki həmin an orqanizmdə istehsal olunan endofrin, serotonin və oksitosin hormonları bizi xoşbəxt və məmnun edir, bu məmnuniyyəti dəfələrlə yaşamaq istəyirik.

Bəzən xeyirxahlığımız başımıza bəla da olur. Biz ehtiyacı olduğunu düşündüyümüz, köməksiz olduğuna inandığımız insanlara təmənna güdmədən, qarşılıq gözləmədən kömək edirik, onlar bizdən faydalandıqları və bizi aldada bildikləri ilə öyünürlər. Biz pul kisəmizdəki sonuncu manatı onlara verəndə, kartımızdakı son pulumuzu yaxından tanımadığımız adama göndərəndə onun ehtiyacı olduğunu düşünürük, o isə bizi aldada bildiyinə sevinir.

Qəssab dükanı önündə marığa yatmış pişik kimi virtual yardım qruplarında fürsət gözləyən insanlar da istismar edir xeyirxahlığımızı. Onlar əllərinə keçən bütün imkanlardan istifadə etməklə hər ay yaxşı gəlir əldə edirlər. Mərhəmətinə yenilib son manatını paylaşılan kart hesabına göndərən insanların sayəsində ən yaxşı yerlərdə əylənir, ən bahalı əyləncə məkanlarında gəzirlər. İanə edilən pullarla bir qazinin, bir uşağın, bir ailənin köməyinə yetdiyini düşünən saf insanlar beləcə aldadılır. Aldadıldığının fərqinə varanda çətin ki bir də xeyirxahlıq etmək fikrinə düşsün. Beləcə bizi xeyir iş görməkdən iyrəndirirlər və itirdiyimiz dəyərlərin sırasına biri də qoşulur. Həqiqi ehtiyaclı insanlar da o fırıldaqçıların güdazına gedir.

Xeyirxahlıq edənlər və bundan fərqli məqsədlər güdənlər də cürbəcürdür. Öz reytinqi üçün edənlər, məşhurlaşmaq istəyənlər, yardım edib bunu öz lehinə çevirənlər, xeyirxahlığı ilə öyünənlər. Hərəsinin öz məqsədi var. Öz reytinqi üçün edən qisim xeyirxah deyil, sadəcə "like" toplamaq üçün, səhifəsinə baxış qazandırmaq üçün özünü yardımsevər kimi göstərir. Məşhurlaşmaq istəyənlər var ki, ehtiyacı olan ailələri tapıb ictimailəşdirir, onların ehtiyacını şouya çevirir və beləcə öz məşhurluğuna qovuşur. İanə toplayıb yardım edənlər var ki, xeyirxahlığı öz xeyrinə istifadə edir, özününküləşdirir. Bir qisim insan da var ki ətrafına yaxşı imic təsiri bağışlamaq üçün xeyirxah edir. O xeyirxah deyil, qəlbi yaxşılıq üçün yaranmayıb, xeyir işləmək onun üçün səhnədə artistlik etmək kimi bir şeydir. Daxili xeyir olmayan insanlar xeyirxah ola bilmir, onlar publikaya oynayır.

Biz bu gün bunun nümunəsini çox görürük. Xüsusilə sosial şəbəkələr həyatımıza bu qədər pərçimləndikdən sonra insanlar hər şeyi orada yaşayır, həyatının hər anını, hər addımını orada nümayiş etdirirlər. Xeyirxahlığı şouya, yardımlaşmağı teatra döndərən insanlar üçün sosial şəbəkələr münbit platformadır. "Sağ əlin verdiyini sol əl bilməməlidir" frazası indi öz gücünü itirib, indi əlin verdiyini bütün ölkə bilməlidir ki, o əlin sahibi öz səhifəsinə "like" yığa bilsin. Xeyirxahlıq öz mahiyyətini itirib təbliğat maşınına çevrilib.

Bir də efirlərdəki "xeyirxahlıq" şouları var. Ehtiyacı olan kəsi, kəsləri, ailələri efirə çıxarıb tənqid yağışına tutduqdan, hətta təhqir etdikdən sonra ona dəstək göstərdiyini iddia edən bu layihələr əslində öz reyqinqi üçün çalışır. Çoxuşaqlı ailəni efirə çıxarıb özündən müştəbeh aparıcılar və ekspertlər kasıblıq yaşadığı halda nəsil artırmaqlarını tənqid edirlər, boyu boyda oğlu-qızı olan atanı ailəsinin və milyonlarla tamaşaçının önündə təhqir edirlər, hamilə qadını avamlıqla günahlandırırlar, planlı hamiləlik barədə danışırlar, hamiləlikdən qorunma yolları barədə məsləhətlər verirlər, ailəni yerdən-yerə vurduqdan, bütün ölkəyə tanıtdıqdan sonra "yardım" edirlər. Yardımı xalq edir, paylaşılan kart hesabına ianə göndərir insanlar. Amma sonradan adına yardım yığılan şəxslər həmin pulun hamısının onlara verilmədiyini, yığılan yardımın yarısının proqram və ya aparıcılar tərəfindən mənimsənildiyini deyirlər. Beləcə insanlarda inamsızlıq, güvənsizlik, sui-istifadə edilmə hissi yaradırlar.

Xeyirxahlıq yoluxucudur, yaxşılıq etmək pandemiya effektlidir. Yoluxun, yoluxdurun. Bizi biz edən, bizi insan edən bu dəyəri itirməyin, unutmayın. İtirilən xüsusiyyətlərə bu da əlavə edilməsin. Xeyir iş görməyin verdiyi həzz, mənəvi rahatlıq başqa heç bir işin müqabilində yaranmır. Ona görə də günü-gündən çətinləşən həyat şərtləri, maddi problemlər bizi xeyirxahlıq etməkdən uzaqlaşdırmasın. Məbləği, dəyəri, həcmi əhəmiyyətli deyil, yaxşı əməl buğda boyda olsa da xeyirxahlıqdır. Xeyirxahlıq bumeranqdır, bu gün etdiyimiz hər yardım, göstərdiyimiz hər köməklik dönəcək, dolaşacaq və yenə özümüzə qayıdıb gələcək. Bəlkə də bu gün qarşımıza çıxan yaxşılıq, hansısa xətadan sovuşmağımız, təhlükədən yaxa qurtardığımız nə zamansa etdiyimiz bir xeyirxahlığın nəticəsidir, kim bilir?!



*Lalə Mehralı*



# Görək ki, görə bilək!

MƏTANƏT

***Bizim yaxşı görməyə ehtiyacımız var. Ona görə ki, yaxşı görəriksə, sadəcə baxmarıq, həm də görərik. Məsələn, görərik ki, biz insanlar ekologiyanın qənimiyik. Dənizin, çimərliklərin, təbiətin düşmənləriyik. Qırırıq, dağıdırıq, çirkləndirik, məhv edirik. Lakin bunu görə bilmirik, yaxşı görsək, görə bilərik. Görərik ki, ayağımızı haraya qoyuruqsa, orada əvvəlki vəziyyətdən əsər-əlamət qalmır. Biz gedirik, bizdən sonra yerdə izlərimiz qalır. O izlər ki, nə siz soruşun, nə mən deyim...***

Bizim yaxşı göz həkimlərinə ehtiyacımız var ki, həqiqətən də ölkəmizdə çox gözəl oftalmoloqlar var. Hansısa bir göz xəstəliyi üçün müraciət etdikdə, problemimizi köklü həll edən həkimlərimiz var. Biz nə etməliyik, hər hansı xəstəliklə qarşılaşdığımız an onlara müraciət etməliyik. Çünki göz elə bir həssas orqandır ki, onunla zarafat olmaz. Həm də bizim sağlam gözə ehtiyacımız var ki, yaxşı görə bilək. Görək ki, dünəni dünəndə qoymuşuq. Dünəndən bu günə ta artıq heç nə daşımamışıq. Adət-ənənələrimizi, ailə dəyərlərimizi, geyim, danışıq, küçə mədəniyyətini göz görə-görə dünəndə qoyub bu günlərə gəlmişik. Allah eləməsin, kor deyilik, baxırıq, lakin acı həqiqətləri necə, görə bilirikmi? Görürükmü ki, biz ta biz deyilik, başqalaşırıq?..

Bizim yaxşı görməyə ehtiyacımız var, tək bizim deyil, dünyadakı hər insanın. Ona görə ki, yaxşı görəriksə, ətrafa da göz gəzdirə bilərik. Heç uzağa getməyək, özümüzdən danışaq. Məsələn, dünyanın gözləri yaxşı görərdisə, bizim qonşuluqdan kənar qonşumuzun nə olduğunu çoxdan görmüş olardı. Uzun illər onların müdafiəsinə qalxmazdı. Haqsızlığın ayaq tutub yeridiyi dünyada bu ayaqları qırardı, erməni ədalətsizliyinə kor-koranə yanaşmazdı. Dünyanın o başından ətrafa gözləri duran yerdə əlləri ilə təmas etməkdən çəkinərdilər.

Bizim görməyə ehtiyacımız var ki, hər şeyi görə bilək. Görə bilək ki, bu dünya əzəlki dünya deyil. Ətrafa xəstəliklər səpən dünyadır. "Burada mən, cənnətdə kor xəlifə" iddiasında olan dünyadır. Bu səbəbdən də zalım dünyadır. Acımadan yox edən, özünə dartan, "mənimdir",- deyən dünyadır. Görsək, görə bilərik ki, bu dünya yaman fani dünyadır. Bu faniliyi insanlara da yansıdan dünyadır.

İnsanların bir-birinə quyu qazmaq meyli, bir-birinə qarşı müharibələr tətbiq etmək, ədalətsizliyin ədalət üzərində hökmranlığı, bəli, dünyanın fani olduğunu görə bilmədiyimizdən irəli gəlir. Hər gün dünyada yüzlərlə, minlərlə insan dünyasını dəyişir. Xeyr, onlar öz əcəlləri ilə ölmür, hər hansı bir müharibənin, hər hansı bir münaqişənin qurbanı olurlar. Çoxsaylı uşaq həyatını itirir hər gün. Valideynləri gözləri önündə can verir. Bütün bunlara biz sadəcə baxırıq, lakin görə bilmirik. Həqiqəti, reallığı görə bilmirik. Görə bilsəydik, təbii ki, insan olduğumuzu da görə bilər və bütün bunların insanlığa yaraşmayan hal olduğunu dərk edə bilərdik.

Sadəcə baxmaqla kifayətlənməyib görə də bilsəydik, görərdik ki, bizim olan dünyanı öz əlimizlə məhvə sürükləyirik. Bir-birimizə olan iddialarımızla, bəzən özümüzü kimdənsə artıq tutmağımızla, dünya varının məhz bizim olması arzusu ilə çabalayırıq. Lakin görə bilsəydik, bütün bunların boş və puç olduğunu da görə bilərdik. Və dünyada sadəcə insan kimi yaşayardıq.

Görmək... Nə böyük xoşbəxtlikdir, İlahi.. Odur ki, hər kəsə görməyi arzu edək. Çünki görməliyik ki, görə bilək. Görə bilməsək, nə dostu, nə düşməni tanıyarıq, nə yaxşını, nə pisi ayırd edə bilərik...

# Şəhərin mərkəzində olan kirayə evlər tələbə büdcəsinə uyğundur?

***Son zamanlar xüsusilə paytaxtın mərkəzində kirayə mənzillərin qiymətləri və şəraiti geniş müzakirə olunur. Tələbələr yeni tədris ilinə hazırlaşarkən, onları ən çox düşündürən məsələlərindən biri də yaşayış probleminin həllidir. Yüksək kirayə haqları və uyğun olmayan şərait bu məsələdə ciddi çətinlik yaradır. Bəs görəsən, şəhərin mərkəzində kirayə evlərin qiyməti və şəraiti tələbələrin büdcəsinə uyğundurmu? SİA bu barədə tələbələr arasında sorğu keçirib.***



**Tələbə Könül Əliməmmədova:** "Şəhərin mərkəzində kirayə evlər tələbələr üçün adətən baha başa gəlir - xüsusilə tək yaşamaq istəyəndə. Lakin bölüşdürülmüş (flatshare) mənzillər və universitet yataqxanaları tələbə büdcəsinə daha real şəkildə uyğun



gəlir. Mənim tövsiyəm - mərkəzdən bir qədər kənardakı evlərə baxmaq, kirayəni paylaşmaq və son variant kimi yataqxananı diqqətlə qiymətləndirməkdir. Bu yanaşma həm xərcləri azaldır, həm də gündəlik rahatlığı təmin edir.

Hazırda şəhərin mərkəzində kirayə evlərin qiyməti kifayət qədər yüksəkdir və orta hesabla aylıq 600 - 1000 AZN arasında dəyişir. Bu məbləğ tələbələrin büdcəsinə çox vaxt uyğun gəlmir, çünki əlavə xərclər - yemək, nəqliyyat və dərs materialları da nəzərə alınmalıdır. Buna görə bir çox tələbə mərkəzdə ev tutmaq əvəzinə yataqxana və ya paylaşılan mənzil seçir. Yataqxanaların qiyməti təxminən 150 - 250 AZN, paylaşılan mənzillərdə isə xərclər adətən 250 - 400 AZN civarında olur. Mərkəzdə yaşamağın üstünlüyü nəqliyyata yaxınlıq və rahatlıqdır, amma büdcə baxımından tələbələr üçün daha əlverişli variantlar adətən mərkəzdən bir qədər kənarda yerləşir".

**Tələbə Rəqsanə Qənbərova:** "Hazırda şəhərin mərkəzindəki kirayə evlərin qiyməti



yüksəkdir və qiymətlər gündən-günə artmaqda davam edir. Mərkəzdə kirayə evlərin ən aşağı qiymətinin 350 - 400 manat civarında olduğunu nəzərə alsaq, tələbələr üçün bu məbləği ödəmək çətin olur. Həmçinin, bu qiymətlər tələbə büdcəsindən demək olar ki, iki dəfə yüksəkdir.

Tədris ilinin başlaması ilə əlaqədar ev sahibləri qiymətləri məqsədli şəkildə artırır ki, bu da tələbələrin münasib qiymətə ev tapmasını çətinləşdirir. Nəticədə tələbələr şəraiti aşağı, amma nisbətən münasib qiymətli, eyni zamanda şəhər kənarında yerləşən kirayə evlər axtarmağa məcbur olurlar. Bu isə əlavə yorğunluğa və dərsə gecikmələrə səbəb olur. İstər-istəməz, tələbələr dərslərə düzgün hazırlaşa bilmir və həddindən artıq yorulurlar".

**Tələbə Nuray Paşşanlı:** "Adətən şəhərin mərkəzində evlərin kirayəsi kənar məhəllələrə nisbətən xeyli yüksək olur. Bunun səbəbi mərkəzdə yerləşməsi, nəqliyyata, iş yerlərinə, universitetlərə və əyləncə mərkəzlərinə yaxınlığıdır. Tələbələr isə rahat və



komfortlu şəraitdə yaşamaq üçün çox vaxt əlavə işlərdə çalışmaq məcburiyyətində qalırlar. Büdcələri məhdud olduğundan bir çox tələbə bir neçə nəfər birləşərək ucuz bir evdə qalmaqla xərcləri bölüşür. Mənim fikrimcə, şəhərin mərkəzində kirayə evlərin qiymətləri tələbələr üçün endirimli olmalıdır. Sonda demək istərdim ki, hazırkı bahalı qiymətlər tələbələr üçün uyğun deyil"

**Tələbə Türkan Mirzəyeva:** "Şəhərin mərkəzində kirayə evlərin qiyməti çox vaxt yüksək olur. Bu, həmin ərazinin yerləşmə üstünlüyü və tələbatın çoxluğu ilə bağlıdır. Bəzən isə qiymət və şərait arasında balans olmur. Buna görə də, şəhərin mərkəzində ki-



rayə ev tutarkən həm qiymətə, həm də şəraitə diqqət yetirmək vacibdir.

Əksər hallarda mərkəzdəki kirayə evlər tələbə büdcəsinə uyğun gəlmir. Yüksək qiymətlər tələbələr üçün maddi çətinlik yaradır. Yalnız bir neçə tələbə bir evdə birgə qalaraq kirayə haqqını bölüşdürdükdə vəziyyət daha əlverişli olur. Buna görə də tələbələr adətən mərkəzdən bir qədər uzaqda, lakin nəqliyyata yaxın ərazilərdə ev kirayələməyə üstünlük verirlər.

Şəhərin mərkəzindəki evləri tələbə büdcəsinə uyğun hesab etmirəm, çünki mərkəzdəki kirayə haqları tələbələrin aylıq gəlirlərini aşır. Üstəlik, əlavə xərclər - komunal ödənişlər, internet, nəqliyyat və gündəlik ehtiyaclar da tələbəni çətin vəziyyətə salır. Buna görə də daha münasib qiymətli, sakit və nəqliyyata yaxın ərazilərdəki evlər tələbələr üçün daha əlverişlidir".

**Tələbə Hüseynova Süsən:** "Şəhərin



mərkəzində kirayə evdə qalmaq əlverişli olardı, çünki hər yerə yaxındır və nəqliyyat imkanları da rahatdır. Lakin qiymətlər çox yüksəkdir və tələbə büdcəsinə uyğun gəlmir. Bir tələbə tək qalarsa, bu məbləği ödəməkdə çətinlik çəkər, amma bir neçə dost birləşib kirayəni bölüşdürəndə xərclər bir qədər münasib olur. Buna baxmayaraq, mərkəzdəki evlər şəraitcə yaxşı olsa da, yüksək qiymətlərə görə tələbələr üçün uyğun hesab edilmir".

**Tələbə Aysu İsmayılzadə:** "Bu gün ən



çox müzakirə olunan mövzulardan biri də şəhərin mərkəzində kirayə evlərin qiymətidir. Mərkəzdəki evlərin kirayəsi əsasən yüksək olur, bu isə həm şəraitdən, həm də universitetlərə yaxınlığından asılıdır. Yüksək qiymətlər ailələr üçün müəyyən qədər uyğun sayılsa da, tələbələr üçün əlverişli deyil. Üstəlik, kommunal xərclərin ayrıca ödənilməsi də tələbələrin bu ərazilərdə ev kirayələməsini çətinləşdirir. Buna görə tələbələr daha münasib qiymətli, şəhər kənarında yerləşən evlərə üstünlük verirlər".

**Tələbə Sevinc Cəfərova:** "Şəhərin mərkəzində kirayə evlərin qiymətləri adətən kifayət qədər yüksək olur və bu, tələbələr üçün ciddi maliyyə yükü yaradır. Mərkəzdə yerləşən evlərin üstünlüyü ondadır



ki, nəqliyyat xərcləri azalır, təhsil ocaqlarına, kitabxanalara və ictimai yerlərə yaxınlıq təmin olunur. Lakin bütün bu üstünlüklərə baxmayaraq, qiymətlər çox vaxt tələbə büdcəsinə uyğun gəlmir. Kirayə haqqının tələbələrin aylıq gəlirini üstələməsi onların əsas ehtiyaclarını qarşılamaqda çətinlik yaradır. Üstəlik, illik təhsil haqları və gündəlik yaşam xərcləri çox vaxt ailə büdcəsini aşır. Tələbələr üçün iş imkanlarının məhdudluğu isə vəziyyəti daha da ağırlaşdırır.

Nəticədə, şəhərin mərkəzində ev kirayələmək əksər tələbələr üçün əlçatmaz olur. Ən real çıxış yolu kimi, onlar ya şəhər kənarında daha ucuz evlərə, ya da yataqxanalara üstünlük verirlər. Buna görə də mərkəzdəki evlərin tələbə büdcəsinə uyğun olduğunu söyləmək çətindir".

***Günel Fərzəliyeva***

# Cütlüklər arasında mübahisələrin səbəbləri və həlli yolları

***Uşağın doğulması hər bir ailə üçün ən böyük sevinc və eyni zamanda ən ciddi sınaqlardan biridir. Bu hadisə yalnız yeni bir fərdin dünyaya gəlməsi deyil, həm də ailədaxili münasibətlərdə tamamilə yeni mərhələnin başlanğıcı deməkdir. Əvvəllər bir-birilərinə fokuslanan cütlüklər indi valideynlik rolunu mənimsəyir və bu, həm psixoloji, həm də sosial baxımdan böyük dəyişikliklər yaradır. İlk aylarda yuxusuzluq, artan məsuliyyət, maliyyə yükü və həyat tərzinin dəyişməsi tərəflər arasında gərginliyə, hətta mübahisələrin çoxalmasına səbəb ola bilir. Bu baxımdan, uşağın dünyaya gəlişi sevinc mənbəyi olmaqla yanaşı, ailə münasibətlərinin möhkəmlənməsi və ya zəifləməsi üçün həlledici dövr kimi də xarakterizə olunur.***

## Uşaq doğulduqdan sonra cütlüklər arasında mübahisələrin səbəbləri və həlli yolları

SİA mövzu ilə bağlı araşdırma aparıb.

## Mübahisələrin əsas səbəbləri












Uşağın dünyaya gəlməsi ailə həyatında böyük dəyişiklik yaradır. Əvvəllər yalnız bir-birilərinə fokuslanan cütlüklərin həyatına yeni bir fərd daxil olur və bu, münasibətlərin dinamikasını dəyişir. Əsas səbəblər:

Məsuliyyətlərin bölüşdürülməməsi - ana bütün yükü daşıyır, ata isə kənarda qalırmış kimi görünür.

Yuxusuzluq və yorğunluq - xüsusilə ilk aylarda yuxusuzluq əsəbilik yaradır, ən kiçik səbəbdən mübahisələr baş verir.

Fərqli tərbiyə yanaşmaları - valideynlərin uşağa baxış tərzi bir-birinə uyğun gəlməyəndə gərginlik artır.

Diqqət və sevgi çatışmazlığı - tərəflərdən biri uşağa bütün diqqəti yönəldir, digəri isə özünü unudulmuş hiss edir.

Maliyyə çətinlikləri - uşağın doğulması ilə xərclər artır, bu da əlavə stress yaradır.

Rol dəyişikliyi - ana və ata olmaq fərdlərin əvvəlki həyat tərzini dəyişdirir, yeni şəraitə uyğunlaşmaq hər kəs üçün asan olmur.

## Nələr edilməlidir?

Bu dövrün mübahisəsiz və daha sağlam keçməsi üçün:

Məsuliyyətləri bölüşmək - ev işləri, uşaq qayğısı yalnız ananın üzərinə düşməməlidir. Ata da aktiv iştirak etməlidir.

Açıq ünsiyyət - narazılıqları susmaq əvəzinə, sakit tonda və empati ilə paylaşmaq lazımdır.

Bir-birinə vaxt ayırmaq - uşaqdan əlavə, ər-arvad münasibətləri də qorunmalıdır. Kiçik də olsa ortaq vaxt ayrılmalıdır.

Dəstək almaq - valideynlərdən, yaxın qohumlardan, bəzən isə psixoloqdan kömək almaq faydalı ola bilər.

Maliyyə planlaşdırması - uşağa görə artan xərcləri əvvəlcədən hesablamaq stressi azaldır.

Səbir və anlayış - hər iki tərəf bilməlidir ki, bu dövr müvəqqətidir və zamanla sabitləşəcək.

## Bu dövr necə keçilməlidir?

Komanda ruhu - ”mən və sən” yox, ”biz” anlayışı önə çıxmalıdır.

Empati - tərəfdaşın çətinliklərini görmək və onu başa düşmək münasibəti gücləndirir.

Özünə vaxt ayırmaq - hər iki tərəf bəzən özünə də vaxt tapmalıdır ki, psixoloji balansı qoruyub saxlaya bilsin.

Kiçik uğurları dəyərləndirmək - uşaq baxımında hər bir tərəfin etdiyi kiçik iş belə təşəkkürlə qarşılanmalıdır.

Nəticə olaraq, uşaq dünyaya gəldikdən sonrakı ilk aylar çətin və gərgin görünə bilər, lakin düzgün ünsiyyət, məsuliyyətin paylaşılması və bir-birinə dəstək münasibətləri gücləndirir. Bu dövrü ”imtahan” yox, ”ortaq yol” kimi görmək ailə bağlarını daha da möhkəmləndirir.

***Ayşən Vəli***

POLİTOLOQ ŞƏRH ETDİ

# "Antiterror tədbirləri nəticəsində Azərbaycanın suverenliyi tam bərpa edildi"



"2023-cü ilin 20 sentyabrı qəhrəman Azərbaycan Ordusunun dövlət suverenliyimizi tam bərpa etdiyi, separatçıların ərazilərimizdə kökünün kəsildiyi və nəticədə beynəlxalq hüququn zəfər çaldığı gün kimi tarixə düşdü. Məlumdur ki, İkinci Qarabağ müharibəsindən sonra Azərbaycan dəfələrlə Ermənistana davamlı sülh üçün çağırışlar etsə də, işğalçı dövlət hər dəfə danışıqlardan boyun qaçırır, bununla da kifayətlənməyərək suveren ərazilərimizdə silahlı təxribatlarını davam etdirirdi". Bu sözləri SİA-ya açıqlamasında politoloq Yusif Bağırzadə deyib.Onun sözlərinə görə, 2021-ci ilin noyabr ayında sərhəddə baş verən qarşıdurma, daha sonra 2022-ci ilin sentyabr ayında Ermənistanın təxribatları və bu təxribata cavab olaraq yenidən baş verən toqquşma eləcə də 2023-cü ilin mart ayında qeyri-qanuni erməni silahlı dəstələrinin Şuşa istiqamətində törətdiyi təxribatlar, aprel və may aylarında mövqelərimizin atəşə tutulması bunun bariz sübutudur: "Başqa sözlə desək, Ermənistan 2020-ci ildə imzalanmış Üçtərəfli Bəyanata zidd olaraq üç il ərzində təxribatlarını davam etdirdi və bununla yanaşı öz silahlı qüvvələrini, texnikasını və qeyri-qanuni hərbi birləşmələrini də ərazimizdən çıxarmadı. 2023-cü ilin 19 sentyabrında ermənilər tərəfindən həyata keçirilən təxribatlar isə Azərbaycanın səbr kasasını daşırdı deyə bilərik.





Belə ki, həmin gün Ermənistan ordusunun Qarabağ bölgəsindəki birləşmələrinin kəşfiyyat-diversiya qrupları tərəfindən Əhmədbəyli-Füzuli-Şuşa avtomobil yolunda terror məqsədilə əvvəlcədən quraşdırılmış minanın partlaması nəticəsində Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə məxsus nəqliyyat vasitəsi sıradan çıxdı və mülki şəxslər həlak oldu. Eyni gün Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının hərbi qulluqçularını daşıyan nəqliyyat vasitəsinin də Ermənistan silahlı qüvvələrinin kəşfiyyat-diversiya qrupları tərəfindən quraşdırılmış minaya düşməsi nəticəsində hərbi qulluqçularımız həlak oldu və yaralandı. Bütün bunlara son qoymaq, təxribatların qarşısını almaq, Üçtərəfli Bəyanatın müddəalarının icrasının təmin etmək və ən nəhayət ölkəmizin Konstitusiya quruluşunu bərpa etmək məqsədilə dövlət başçısı tərəfindən lokal xarakterli antiterror tədbirlərinə başlanılması haqqında əmr verildi.

Nəticədə, cəmi bir gün ərzində düşmənin silah və texnikalarının böyük hissəsi sıradan çıxarıldı və erməni separatçıları ağ bayraq qaldırmağa məcbur oldular. Qarabağın erməni sakinlərinin nümayəndələrinin Rusiya sülhməramlı kontingenti vasitəsilə müraciətini nəzərə alaraq, tam atəşkəs haqqında razılaşma əldə olundu və lokal xarakterli antiterror tədbirləri dayandırıldı. Ağır relyef, düşmən tərəfindən uzun illər böyük mühəndislik işləri nəticəsində istehkamların mövcudluğu şəraitində, düşmən mövqelərinin təpələrdə, əlverişli yerlərdə yerləşdirilməsinə baxmayaraq hərbçilərimiz qəhrəmanlıq, peşəkarlıq göstərdilər və qısa müddət ərzində bütün istiqamətlər üzrə əhəmiyyətli dərəcədə hərbi uğurlar əldə etdilər. Cəmi 23 saat davam etmiş və sentyabrın 20-də başa çatmış əməliyyat nəticəsində rəşadətli Azərbaycan Ordusu qarşısına qoyulmuş bütün vəzifələri yüksək peşəkarlıqla yerinə yetirdi. Beləliklə, növbəti parlaq Qələbə nəticəsində Azərbaycan Respublikasının suverenliyi tam bərpa edildi. Azərbaycan xalqının həyatında müstəsna əhəmiyyət kəsb edən şanlı Zəfər sayəsində bu gün Azərbaycan Respublikasının Dövlət Bayrağı suverenliyimizin bərqərar olduğu bütün ərazilərdə əzəmətlə dalğalanmaqdadır".

***Arzu Qurbanlı***

# Futbolumuzun QURBAN QURBANOV əfsanəsi!

***Hələ gənc yaşlarımda, 70-ci illərdə gələcəkdən xəbərlər verən Nostradamusun bir xəbəri dillərdə əzbər idi: "XXI əsr türkün dirçəliş əsri olacaq"! Mən gələcək haqqında söylənilən heç bir fikrə, heç bir xəbərə heç vaxt inanmamışam. Amma bu kəlamın, bu xəbərin birbaşa mənsub olduğum millətlə bağlı olması məni öz ağuşuna ala bilmişdi...***



Zaman keçdi. Sanki ilahi qüdrətdən dəstək alan Nostradamusun dediklərinin reallaşmasına, məhz XX əsrin sonlarında inanmağa başladım. O zaman ki, tanrının türk ddünyasına bəxş etdiyi və bütün bəlalardan hifz edərək qoruduğu Ulu Öndər Heydər Əliyev türk dünyasının bir parçası olan Azərbaycana, həm də azad və müstəqil Azərbaycana rəhbərliyə döndü. Ümumtürk dünyasının ən qüdrətli tarixi şəxsiyyətlərindən olan Heydər Əliyevin kiçik bir məmləkəti dünyanın ən nəhəng gücləri ilə bir araya gətirə bilməsi və dövrün ən güclü türk dövləti olanTürkiyə ilə birlikdə BÖYÜK TÜRK BİRLİYİnin təməlini qoyması gələcəyin xəbərçisinin xəbərinin reallaşacığına tam əminlik yaratdı. Sonrakı dövrdə, məhz XXI əsrin ilk illərindən başlayaraq Ərdoğan-Əliyev birliyinin bu yöndə gördükləri işlər haqqında isə qalaqqalaq kitablar yazmaq gərəkdir...

Əziz oxucum! Yazıma giriş olaraq bu qeydlərimi oxuyub "Yazının başlığı ilə əlaqəsi?" deyib də məni qınamağa tələsmə. Bu gün dünyada millətlərin, dövlətlərin ən güclü tanıtım vasitələrindən biri məhz idmandır. Bəlkə də elə bu aydın həqiqətə xüsusi dəyər verən əsrlərin Fateh-lideri, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, hələ ölkənin başına gəlməzdən çox-çox əvvəl Azərbaycanın 1 nömrəli idman təşkilatına - Milli Olimpiya Komitəsinə rəhbərlik etməyə başladı. Böyük idman dünyasının isə ən geniş yayılmış, ən populyar sahəsi futboldur. Azərbaycan idmançılarının bütün sahələrdə böyük uğurlar qazanmasını kiçiltmək fikrim yoxdur. Azərbaycan bayrağının hər dəfə dünyanın müxtəlif arenalarında dalğalanması milyonların diqqətini ölkəmizə, onun əzəmət və qüdrətinə çəkir. Ancaq futbol elə bir idman növüdür ki, onu milyonlar deyil, yüz milyonlar, bəlkə də milyardlar izləyir və hər bir əzəmətli, prinsipial oyun nümayiş etdirməklə meydandakı 11 nəfər ümumən xalqın, millətin əzəmətini, iradəsini, qətiyyətini yüz milyonlarla, milyardlarla insana nümayiş etdirmiş olur. "QARABAĞ" ın pleyy-of mərhələsində göstərdiyi əzəmət və prinsipiallıq kimi!

Mən elə də güclü futbol azarkeşi deyiləm. Amma Azərbaycanın və Türkiyənin futbol komandalarının beynəlxalq arenalardakı bütün oyunlarını izləyir və qürur keçirirəm. Çünki hər bir beynəlxalq yarışı yüz milyonlar izləyir və deməli AZƏRBAYCAN xarakteri ilə yüz milyonlar tanış olur. Söz yox, məğlubiyyət olanda hər bir azərbaycanlı kimi mən də məyus oluram. Amma "QARABAĞ"ın dünya, avropa meydançalarında sərgilədiyi qətiyyətli, müdrikliklə və əzmkarlıqla müşahidə olunan oyunlarının içimdə yaratdığı hissi zəngin Azərbaycan türkcəsində ifadə etməkdə çətinlik çəkirəm...

Bəli, XXI əsr türkün yenidən dirçəliş əsridir. Bu dirçəlişin tanrı tərəfindən seçilmiş ən böyük nümayəndəsi HEYDƏR ƏLİYEV, onun bu tarixi missiyasının əvəzolunmaz davamçıları isə İLHAM ƏLİYEV və RƏCƏB TAYYİB ƏRDOĞAN tondemidir. Bu qüdrətli cütlüyün fantastik siyasi və diplomatik əzəmətinə hər kəs öz sahəsində vicdanlı, qətiyyətli və "inkişafa dəstək" prinsipi ilə yanaşarsa, o zaman qələbələrimizin də sayı artar, əsrimizin "TÜRK ƏSRİ" olduğuna bütün dünyanı inandırmaq yolumuz daha sürətlə genişlənər. Mən dünən "QARABAĞ"ımızın göstərdiyi şücaəti bu baxımdan futbolumuzun əfsanəvi nailiyyətlərindən biri hesab edir və bütün qələbələrimizin Baş Memarı cənab Ali Baş Komandan olmaqla yanaşı, futbolumuzda qazanılan bu əfsanəvi tariximizin memarı QURBAN QURBANOVdur! Bir türk olaraq, bir azərbaycanlı olaraq bizlərə bəxş etdiyi bu qürurverici duyğulara görə "QARABAĞ"ın hamisi "AZƏRSUN"-dan tutmuş bütün üzvlərinə minnətdarlığımı bildirirəm. Amma bu əfsanənin memarı QURBAN QURBANOVa xüsusi təşəkkürlə yanaşı, deyirəm; Nə yaxşı ki, Azərbaycan futbolunda varsan, QURBAN QURBANOV! Nə yaxşı ki, əfsanələri gerçəyə çevirən sənin kimi müdrik və prinsipial bir mütəxəssisimiz var! Sən Azərbaycan futbol tariximizin əfsanəsisən desək, yanılmarıq. Çox da böyük olmayan maliyyə ilə milyardlarla büdcəyə malik komandalarla başbaşa oyun nümayiş etdirə bilmək, bununla ölkənin əfsanəvi inkişaf yolunda payçı olmaq özü bir əfsanəvilik deyil də, nədir?..

***Təhmasib Novruzov***
***Yazıçı-publisist***

# Rusiya əl-ayağını Cənubi Qafqazdan yığışdırmalıdır

## "Azərbaycan və Ermənistan arasında aparılan danışıqlar Cənubi Qafqazda davamlı sülhə gətirib çıxaracaq"

***Xəbər agentlikləri bildiriblər ki, bunu Türkiyə Cümhuriyyətinin Prezidenti Rəcəb Tayyib Ərdoğan Çində Rusiya Prezidenti Vladimir Putinlə görüşündə deyib. Prezident Azərbaycan və Ermənistan arasında aparılan danışıqların davamlı sülhə gətirib çıxaracağına, Cənubi Qafqazda davamlı sabitliyin Türkiyə ilə Rusiyanın qarşılıqlı maraqlarına uyğun olacağına ümid etdiyini bildirib.***

Sitatdan aydın görünür ki, Vladimir Putin ağıllı və sanbalını gözləyən dövlət başçısı olsaydı, bu sözlər ona deyilməzdi. Kimsə Putinə sual verə bilər ki, Azərbaycanla Ermənistana nə verib ala bilmirsən? Hər ikisi müstəqil dövlətdir, öz ərazisindən necə istəsə istifadə edə bilər. Zəngəzur dəhlizinin sənə nə dəxli, ərazi Ermənistanın, yol Azərbaycanın. Necə razılaşdıqlarının sənə hansı aidiyyəti var? Başqa ölkələrə ağalıq etmək ixtiyarını kim sənə verib? Ölkələrin əhalisini yüz illərlə qırıb-çatdığınız, ərazilərinə yiyələndiyiniz, yeraltı, yerüstü sərvətlərini çalıb-çapdığınız, tarixini və mədəniyyətini məhv etdiyiniz bəs etmirmi?

Artıq bütün ölkələr hər yerdə Rusiyanın barbar işğalına ”yox” deyir, hətta xalqlar əllərinə silah alıb ona qarşı çıxırlar. Qəribədir, Qarabağın işğaldan azad edilməsi bunlara dərs olmadı. Xoşməramlı adı ilə, ancaq bəd niyyətlə gəldikləri üçün Azərbaycandan xalqın nifrəti ilə qovuldular, amma siçovul kimi yenə soxulmağa ”deşik” axtarırlar.

Yuxarıdakı suallara cavab verməli olan Rusiya rəhbərliyi irticaçı əməllərindən yenə də əl çəkmək istəmir. Bunlar göstərir ki, ”çıx” deməklə donuz darıdan çıxan deyil. Donuza ”çıx” deyən də var, ancaq çıxmır ki, çıxmır. İrəvanda Putini nə qədər təhqir etdilərsə, portretlərini ayaqlayıb yandırdılarsa, Rusiyaya nə qədər ”rədd ol” dedilərsə, etiraz aksiyaları keçirdilərsə padoş sifətlərinə kar etmədi.











Əlbəttə, Prezident Ərdoğanın sözlərindəki dərin mənanı anlasaydı, onda Rusiya prezidenti əl-ayağını yığışdırıb öz yuvasına çəkilər, aralıqlara fitnə-fəsad yaymazdı. Ancaq təhqirlərə belə əhəmiyyət verməyib başqasının torpağını zəbt etmək iştahı canlarından çıxmaq bilmir.

”Cənubi Qafqazda davamlı sabitliyin Türkiyə ilə Rusiyanın qarşılıqlı maraqlarına uyğun olacağı” ifadəsində Prezident Ərdoğan Rusiyaya öz yerini göstərir. Diplomatik dillə xəbərdarlıq edir ki, indi Rusiya bölgədə heç kimdir, Azərbaycanla Ermənistanın işinə qarışmasın, özləri öz problemlərini həll etməyin öhdəsindən lazımınca gəlirlər. Görək prezident Putin nə reaksiya verəcək?

Ancaq hegemonluq iyi hələ burnunda qaldığı üçün çətin ki, yıxılmaqda olan çürük imperiyanın rəhbəri düz yola gələ. Hazırda Rusiyanın çabalamasından, Azərbaycan əleyhinə informasiya kampaniyası təşkil etməsindən açıq hiss olunur ki, ona deyilənlərdən düzgün nəticə çıxarmayıb. Şayət, hərbi yola əl atarsa həm Azərbaycan, həm də Ermənistan Türkiyənin yanında səf tutacaqlar. Buna artıq heç bir şübhə yeri yoxdur. Hələ digərləri də var. Onda o meydanda Rusiyanın biabırçı məğlubiyyəti qaçılmaz olacaq. Ancaq Rusiya Türkiyənin qarşısında at oynatmağa cürət etməz. O, türkün gücünü çox görüb. Yaxasını Ukraynanın əllərindən qopara bilməyən işğalçı Kreml başqalarına yalnız hart-hurt edə bilər, ondan o yana keçməyə ürək eləməz. Çünki onun büdrəməsini daxildə qapaz altında saxladığı başqırdlar, tatarlar, çeçenlər, udmurtlar, çuvaşlar, inquşlar, marilər, tuvinlər və s. xırda xalqlar da gözləyirlər. Təbii ki, yüz illərdir ki, onlar da azad yaşamaq, öz talelərini özləri müəyyən etmək istəyirlər. İndi onlar da əlverişli məqamın yaxınlaşdığını hiss edir və mübarizəyə başlamağa hazırlaşırlar. Çin və Yaponiya ilə ”yatmış” ərazi mübahisələri də Rusiyanın başı üstündədir. Bir sözlə, dünyanın yarıdan çoxunun bu işğalçı ölkə ilə ”çəkilməmiş yarma”sı var. Avropa ölkələri də öz yerində. Rusiya bütün bunları göz önünə gətirməlidir. Xatırladaq ki, Pekinlə danışıqlardan sonra məlum olub ki, Putin oradan kor-peşman qayıdıb. Yəni gözləntiləri gözlərində qalıb. Yeganə ”nəticə” vizasız rejim olub. Bu isə maliyyə böhranından çıxış yolu deyil, o qədər də əhəmiyyəti olmayan sadəcə formal bir addımdır.

Bu vəziyyət bir daha göstərdi ki, prezident Vladimir Putinin və komandasının dayaz siyasəti Rusiyanı daha çıxılmaz bataqlığa sürüyür. İqtisadi sanksiyalar onu heydən salır. Bank sektorunda iflic vəziyyət, beynəlxalq aləmdə təcrid və ”strateji tərəfdaş” sayılan Çindən belə maliyyə dəstəyi ala bilməmək Kreml üçün biabırçı uğursuzluqdur. Belə görünür ki, Moskvanın artıq nə Qərbdə, nə Cənubda, nə də Şərqdə real dayağı qalıb. Yalnız öz başının hayında olan İran mollaları qalıb. Heç kəs Rusiyaya kömək etmək istəmir. Şanxay Əməkdaşlıq Təşkilatının sammitində bu həqiqət özünü çılpaqlığı ilə göstərib.

Prezident Ərdoğanın söylədiyi bir neçə cümlədə bu fikirlərin hamısı öz yerini tutur. Bunlar əslində işğal həvəskarı olan Rusiyaya acı xəbərdarlıqdır. Kremlin axmaq ideoloqları heç olmasa bunu başa düşsələr ağalarına vəziyyətdən çıxış yolu arayardılar. Yoxsa bir ayağı burada, o biri gorda olanın başqalarına tələ qurması əsl müxənnətlikdir. Yüz illərdir ki, kiçik və məzlum xalqlara və millətlərə cəlladlıq edən Rusiya nəhayət, zülm yolunun sonuna çatıb. İrəlidə isə işıqlı yol görünmür. Ömürboyu baş kəsməklə məşğul olan cəlladın çıxış yolu isə yalnız bir olur: Bədəlini ödəmək!

***Vəli İlyasov***

# Təbiət səxavətlidir, insanlar acgöz

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "insan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması " istiqaməti çərçivəsində hazırlanıb*







***Acgözlük əksər canlılarda var. Heyvanlarda da, insanlarda da. İnsanlarda güc hərisliyi, yemək hərisliyi, pul hərisliyi var, bəzi heyvanlarda sadəcə yemək acgözlüyü. Sadəcə insan şüurlu şəkildə edir, heyvan şüursuz. Heyvanların planı yoxdur, qidanı mühafizə edə bilmirlər, ala bilmirlər, sata bilmirlər, barter və ya bənzər sistemləri yoxdur. Maksimum doyanadəkdir acgözlükləri, doyduqdan sonrası ilə işləri olmur. Bəziləri torpağı qazıb yerə basdıra bilir, bəzisi yuvasına ehtiyat azuqə yığa bilir, amma insanın elədiyi, yığdığı, depoladığı qədər yox.***

İnsanlar fərqlidir. Yaradanın ən ali varlıq adlandırdığı bizlər daha acgözük, daha hərisik. İnsan qazandıqca qazanmaq, yedikcə yemək, gücləndikcə güclənmək istəyir. Doyumsuzdur. Tamah, mənfəət, gəlir - adını nə qoyursa qoysun. Hərislik donunu, rəngini, cildini dəyişə bilir, amma mahiyyətini dəyişmir. "Acgöz" sözü var dilimizdə, birisi haqqında danışanda onun şəxsiyyətini təsvir etmək üçün mənfi mənada işlətdiyimiz sözdür. Əgər insan fitrətində doyumsuzluq, hərislik, acgözlük varsa, onun şəxsiyyəti heç vaxt bütöv olmur.

Məşhur bir misal var, "ac insan doyar, amma acgöz doymaz" deyə. Gözü doymayan insanı heç nə doyura bilməz, ruhu acdır çünki. Varlandıqca daha çox var istəyir insan. Qazanır, qazanır, amma doymur. Qazandıqları ömrünün sonuna yetəcək qədərdir, nəvə-nəticəsini doyuracaq qədərdir, amma yenə qazanmaq hərisliyi var. Tələbatı bitmir, ehtiyacı tükənmir insanın.

Gözəlləşmək uğrunda da çirkin bir acgözlüyü var insanın. Bu gün dodağını əməliyyat etdirir, sabah burnunu, birisigün yanağını. Gözəllik hərisliyə çevrilir getdikcə. Çirkinliyə çevrilənədək davam edir,



çirkinlik xəstəliyə çevrilik, insan əl çəkmir gözəllik hərisliyindən, estetik əməliyyatlar aclığından.

Dünya çoxdandır yaşanılası yer deyil. Dünyanın bir tərəfində süd vannasında üzənlər var, digər tərəfində bir damla südə həsrət ac insanlar. Kimi bu gün alacağı son model telefonun, avtomobilin kataloqunu süzür, kimi bir loxma çörək üçün yerdə sürünür.

Varı-dövləti "itə tök" olanlar da dərd çəkir, balasını gecələr ac yatırdan da. Kimisi milyonlarını mühavizə etməyin yollarını arayır, kimisi sabah yavan çörək ala bilməyin. Kiminin böyük evi, bol qidası, yumşaq yatağı var, kiminin quru döşəməsi, tavansız evi, beyin yandıran günəşi, ac qarınları. Kimisi daha bir ev almaq uğrunda mübarizə aparır, kimisi sağ qalmaq uğrunda. Kimisi xərcləyib qurtara bilmədiyi milyonların üstünə milyonlar gəlsin istəyir, kimisi sadəcə doymaq və yaşamaq.



Maddi-mənəvi olaraq doymur insan. 1 evi olanda 2-cini istəyir, 2 evi olanda 3-cünü. Hər şeyin yaxşısına, yenisinə sahib olmaq istəyir. Ac gözü yetinmir, qane olmur, acgözlülüyü artdıqca ətrafı boşalır. Acgöz insanın dostu olmur. Onlar üçün tamah ən yaxın dostdur, çünki həmişə hər şeyin yaxşısını özləri üçün istəyirlər.

Təbiətdə heç bir canlı insan qədər acgöz deyil. Yırtıcı ovunu yaxalayıb qarnı doyanadək yeyib uzaqlaşır, yerdə qalanını digər canlılar yeyir. Ağaclar torpaqdan yalnız ehtiyacı olan qədər su içirlər. Quşlar taxıl zəmisindən o kiçik dənlikləri doyanadək buğda yeyəcəklər, torbaları, kassaları yoxdur artığını yığmağa. Yalnız qarışqalar dar gün üçün tədürük görürlər, o da heç kimə zərər vermədən, kimsənin azuqəsini oğurlamadan, acların payını çırpışdırmadan.

Təbiət saxavətlidir, hamıya yetəcək qədər qida verir əslində. Problem biz insanların mal-mülk, pul-para, gec-hökmranlıq hərisliyindədir. Problem yaradanın bütün yer üzünə hədiyyə etdiyi qidaların paylaşdırılma mexanizmindədir. Kimisi mədəsi partlayanadək yeyə bilir, kimisi uşaqlarının aclıqdan ağlaşmasına dözmək məcburiyyətindədir. Ədalət bunun harasındadır? Dünyanın ədalət tərəzisinə hiylə qurulub, bəzi acgöz satıcıların tərəziyə əməl etdiyi kimi. İnsan da dünyaya oxşayıb. Mal yiyəsinə oxşamasa haram sayılır axı...

***

**Lalə Mehralı**

## "Mövsümi yüklənmənin mənfi təsirləri minimuma endirilə bilər"

*EKSPERT DANIŞDI*



"Sentyabr ayı, xüsusilə də dərs ilinin başlanması ilə əlaqədar olaraq, şəhər həyatında "ən sıx" dövrlərdən biri kimi xarakterizə oluna bilər. Bu dövrdə əhalinin böyük qismi tətil və istirahətdən qayıdır, nəticədə şəhər məkanlarında və ictimai nəqliyyatda ciddi yüklənmə müşahidə edilir". Bu sözləri SİA-ya açıqlamasında nəqliyyat eksperti Aslan Əsədov deyib.Aslan Əsədov sözlərinə belə davam edib: "İctimai nəqliyyatda - xüsusən metro və avtobuslarda - sıxlıq özünü daha çox göstərir. Son illərdə avtobus parkının yenilənməsi, yeni marşrutların istifadəyə verilməsi və müasir nəqliyyat vasitələrinin tətbiqi müşahidə olunsa da, bu tədbirlər hələlik ümumi tələbatı tam ödəməkdə çətinlik çəkir.

Problemin əsas səbəbləri bunlardır:

Sentyabr ayında iş və təhsil mövsümünün eyni vaxtda başlaması;

Şəhər əhalisinin birdən-birə sayca artması;

Nəqliyyat infrastrukturunun sərnişin axınına tam uyğunlaşmaması.

Mütəxəssislərin fikrincə, davamlı olaraq nəqliyyat vasitələrinin yenilənməsi, marşrutların optimallaşdırılması və sərnişin axınına uyğun tədbirlərin görülməsi vacibdir. Yalnız bu halda, mövsümi yüklənmənin mənfi təsirləri minimuma endirilə bilər".

**Ayşən Vəli**

SON SƏHİFƏ
SƏS
5 sentyabr
2025-ci il


# "SƏS" qəzetinə abunə kampaniyası davam edir!



«SƏS» QƏZETİNƏ ABUNƏ OLMAQ İSTƏYƏNLƏR AŞAĞIDAKI YAYIM ŞİRKƏTLƏRİ İLƏ ƏLAQƏ SAXLAYA BİLƏRLƏR

1. Azərpoçt Poçtdaşıma Mərkəzi – 0125984955, 0552004544
2. Azərmətbuat Yayım MMC – 0124411991, 0124404694
3. Səma Mətbuat Yayım – 0125940252, 0503336969
4. Pressaİnform MMC – 0125115191, 0504560835, 0553156002
5. Qaya Mətbuat yayım – 0125667780, 0502352343
6. Ziya LTD – 0124977696, 0503067744

1 nüsxə 1 aylığı 13.20 AZN
6 aylıq 79.20 AZN
1 illik 158.40 AZN

ABUNƏÇİLƏRİMİZİN XİDMƏTİNDƏYİK
Müraciət, şikayət, yazı, təbrik və başsağlıqlarınızı dərc etməyə hazırıq!


# Gənclər və əcnəbi ilə ailə: yenilik və ənənə arasında gərginlik

## SOSİOLOQ AÇIQLADI





Gənclər arasında əcnəbi ilə ailə qurmaq getdikcə daha geniş yayılır və onlar üçün artıq bu, təbii, normal bir hal kimi qəbul olunur. Qlobal dünyanın imkanları, fərqli mədəniyyətlərlə tanışlıq və şəxsiyyət azadlığı gənclərin seçimində əsas rol oynayır. Lakin təəssüf ki, cəmiyyətimizin bir hissəsi hələ də bu dəyişiklikləri tam mənimsəyə bilmir və belə ailələrə, loru dildə desək, mənfi yanaşır. Məsələ ilə bağlı sosioloq Üzeyir Şəfiyev SİA-ya açıqlamasında bildirib ki, Azərbaycan cəmiyyəti uzun illər ərzində ənənəvi dəyərlərə və stereotiplərə əsaslanıb. Bu ənənəvi baxışlar xüsusilə ailə qurmaq məsələsində özünü daha qabarıq şəkildə göstərib.

Onun sözlərinə görə, əcnəbilərlə evlilik mövzusu da buna görə həmişə diqqət mərkəzində olub və sosial mühitdə birmənalı qarşılanmayıb: "SSRİ dövründə bu məsələ daha da mürəkkəb idi, çünki həmin dövrdə milli kimlik və mədəni fərqliliklər daha qabarıq idi və insanlar adətən öz etnik və milli qrupları daxilində ailə qurmağa üstünlük verirdilər. Xarici vətəndaşlarla evlilik məsələsi həm sosial, həm də hüquqi maneələrlə üzləşirdi və buna görə də belə evliliklər çox nadir hallarda baş verirdi. Lakin Azərbaycan müstəqillik qazandıqdan və qlobal dünyaya daha açıq olduqdan sonra insanların dünyagörüşü də genişlənməyə başladı. Xaricdə təhsil alan, işləyən və ya sadəcə müxtəlif ölkələrdən olan insanlarla tanışlıq imkanları artdı. Bunun nəticəsində də, əcnəbilərlə ailə quranların sayı əhəmiyyətli dərəcədə artdı. Bu, təbii ki, insanların seçim azadlığından irəli gələn müsbət bir tendensiyadır. Hər kəs öz xoşbəxtliyini axtararkən sərhədlər və millət fərqləri önəmli olmamalıdır. Sevgi və qarşılıqlı hörmət əsasında qurulan ailələr cəmiyyət üçün dəyərli və sağlam nümunədir. Lakin təəssüf ki, bəzi şəxslər bu prosesi başqa məqsədlər üçün istifadə edirlər. Məsələn, xaricdən oturum almaq və ya başqa hüquqi üstünlüklər qazanmaq üçün məqsədli şəkildə belə evliliklərə əl atırlar. Bu cür hallar cəmiyyətin və dövlətin diqqət mərkəzində olmalı, qanunvericilik və sosial nəzarət gücləndirilməlidir ki, qanunsuz evliliklərin qarşısı alınsın və həqiqi sevgi üzərində qurulan ailələr dəstəklənsin. Digər tərəfdən, Azərbaycan daxilində belə, bölgələrarası evliliklər də əvvəllər stereotiplərlə qarşılanırdı. Məsələn, paytaxtla bölgələr, müxtəlif etnik və mədəni qruplar arasında evliliklər bəzən ictimai təzyiqlərlə üzləşirdi.

Əlbəttə ki, Azərbaycan kimi çoxmədəniyyətli və tarixi köklərə malik ölkədə, genofondun qorunması da önəmlidir. Eyni zamanda milli dəyərlərin və ənənələrin yaşadılması üçün azərbaycanlıların bir-biri ilə ailə qurması vacibdir. Bu, həm də milli kimliyin gücləndirilməsi və mədəni dəyərlərin gələcək nəsillərə ötürülməsi baxımından əhəmiyyət kəsb edir. Lakin bu, insanların seçim azadlığına və şəxsiyyət hüquqlarına müdaxilə edilməməli, sevgi və hörmət kimi universal dəyərlər ön planda tutulmalıdır. Ümumiyyətlə, müasir cəmiyyətdə ən vacib olan amil insanların xoşbəxtliyi və azad seçimidir. Əcnəbilərlə evlilik, bölgələrarası münasibətlər, milli və mədəni fərqliliklər - bunlar bütünlükdə cəmiyyətin zənginliyini və müxtəlifliyini göstərən elementlərdir. Azərbaycan da bu zənginliyi qoruyub saxlayaraq, həm milli dəyərlərinə sadiq qalmalı, həm də qlobal dünyaya açıq olmağı bacarmalıdır. Bu balansın qurulması gələcək nəsillərin həm milli köklərinə bağlı, həm də dünyaya inteqrasiya olmuş fərdlər kimi yetişməsinə şərait yaradacaq".

***Arzu Qurbanlı***

# Ayaqqabının içində 614 qram qızıl keçirmək istədilər..

***Qızıl-zinət əşyalarının qanunsuz keçirilməsinin qarşısı alınıb. SİA bu barədə Hava Nəqliyyatında Baş Gömrük İdarəsinə istinadən xəbər verir. Məlumata görə, İdarənin əməkdaşları tərəfindən qızıl-zinət əşyalarının bəyan edilmədən Azərbaycan gömrük sərhədindən keçirilməsinə cəhdin qarşısı alınıb.***



Bakı-Dubay aviareysi ilə gedən Azərbaycan Respublikası vətəndaşı gömrük nəzarət zonasından keçərkən onun ayaqqabısının içərisində və üzərində gizlədilmiş, gömrük orqanlarına bəyan olunmayan 8 ədəd qızıl lövhə və 2 ədəd boyunbağı, ümumilikdə 614 qram qızıl-zinət əşyaları aşkar edilib. Faktla bağlı araşdırma aparılır.

# Marketdən lotereya biletləri oğurlayan keçmiş məhkum yaxalandı

Bakıda marketlərdən oğurluq olub. Bu barədə Daxili İşlər Nazirliyindən məlumat verilib. Bildirilib ki, paytaxtın Xəzər rayonunda talama cinayətləri qeydə alınıb. Türkan qəsəbəsində müxtəlif vaxtlarda iki marketdən 75 manat və ödəmə terminalı oğurlanıb. Bu barədə zərərçəkən şəxslər polisə məlumat verib.



Xəzər RPİ-nin 1-ci Polis Şöbəsinin əməkdaşları tərəfindən keçirilən tədbirlə qeyd olunan əməlləri törətməkdə şübhəli bilinən 29 yaşlı A.Əliyev saxlanılıb.

Nizami RPİ-nin 25-ci Polis Şöbəsinin əməkdaşları tərəfindən keçirilən tədbir zamanı isə marketdən 1200 manat dəyərində lotereya biletləri oğurlamaqda şübhəli bilinən, əvvəllər məhkum olunmuş 37 yaşlı R.Piriyev də tutulub. Faktlarla bağlı araşdırmalar aparılır.

## ELAN

Şirvan şəhəri, leytenant İbrahimov küçəsi, ev 18, mənzil 15, ünvanında yaşayan Vahabova Gülnar Novruz qızı "Şəfəq İnşaat" MMC-nin yaşayış binasından aldığı 12 saylı mənzilə görə bağladığı 16 iyun 2010-cu il tarixdə imzalanan 123 (16) nömrəli müqavilə itdiyi üçün etibarsız hesab edilir.

*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri, Üzeyir Hacıbəyli küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.
QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR
**Tel: 598-33-90**
**Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur

**Tiraj: 3000**